www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 may 2018-ci il Cümə axşamı № 107 (6996) Qiymәti 60 qәpik

**Xəbər**

## Bayıl yenə sürüşdü, sakinlər təşviş içində

yazısı səh.15-də

**Gündəm**

### Prezident İlham Əliyev Naxçıvandan mühüm mesajlar verdi



**Dövlət başçısı:** “Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər”

yazısı səh.3-də

### Heydər Əsədovun villaları - “Milyonerlər məhəlləsi”ndən “Tarqovı”ya qədər...

yazısı səh.5-də

### “Azərbaycanda uçuşların təhlükəsizliyi yüksək səviyyədə təmin olunur” - ABŞ-ın Federal Aviasiya Administrasiyası

yazısı səh.2-də

### Jirinovski Böyük Azərbaycan xəritəsi yaydı - bu, nəyin mesajıdır?

yazısı səh.6-da

### Qərb Əli Kərimlini dəftərindən sildimi...

yazısı səh.4-də

### Türkiyə seçkiləri - kim nə qədər şanslıdır...

yazısı səh.6-da

### Dələduzluqda suçlanan polkovnik brakonyerliklə də məşğul imiş...

yazısı səh.7-də

### Azərbaycana meydan oxumaq istəyən Paşinyanı “Qarabağ klanı” yola sala bilər

yazısı səh.11-də

**Ramazan ayının 1-ci günü**

İftar 20.07. İmsak 03.29-dək (QMİ)

1-ci günün duası: “İlahi, bu gün mənim orucumu həqiqi oruc tutanların orucundan və durub Sənə ibadət eləməyimi həqiqi ibadət edənlərin ibadətindən hesab et. Və bugünkü gündə məni qəflətdə yatanların yuxusundan oyat. Günahlarımı bağışla, ey aləmlərin Allahı və günahkarları əfv Edən”.

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# TRAMPIN QƏFİL TƏBRİKİ VƏ “ƏCƏL ZƏNGİ” - “İŞĞALÇI QARABAĞI İTİRƏCƏK...”

Baş nazir dəyişikliyindən sonra Ermənistan uğrunda ABŞ-Rusiya rəqabəti daha amansız mərhələyə keçir; **Rusiya nəşri Qarabağla bağlı İrəvana pis müjdə verdi və Nikol Paşinyanı “ABŞ-ın alətisi” adlandırdı:** “Qərb ermənilərə böhran hazırlayır...”




yazısı səh.8-də

## AŞ PA-dan skandal qərar - Səməd Seyidova sanksiya tətbiq edildi

**Deputat:** “Heç kim Azərbaycanı və onun üzvlərini AŞ-dan kənarlaşdıra bilməz, sanksiyalar nə söz deməyimizə və sənəd qəbuluna əngəl yarada bilər”

yazısı səh.5-də



### Elmar Məmmədyarovun “danışıqlara hazırıq” bəyanatı etiraz doğurdu

yazısı səh.10-da



*Elman Nəsirov:*

### “Korlanmış Türkiyə-İsrail münasibətlərinin yenidən bərpa edilməsində Azərbaycanın potensialı genişdir”

yazısı səh.9-da



*Qubad İbadoğlu:*

### “Hakimiyyət neft gəlirlərinə güvənən siyasətə qayıtmamalıdır”

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018



# “Nazir Ramil Usubov fəaliyyətini təqdir edən məqalələrə rəğbətlə yanaşmır” - Ehsan Zahidov

**Daxili İşlər Nazirliyi mətbuatı Ramil Usubovun özünü və xidməti fəaliyyətini təqdir edən məqalələrə son verməyə çağırıb.**

Nazirliyin mətbuat xidmətinin rəisi Ehsan Zahidov APA-ya bildirib ki, KİV-də Daxili İşlər Nazirliyinin rəhbərliyində təmsil olunan vəzifəli şəxslərin, xüsusən nazir Ramil Usubovun özünü və xidməti fəaliyyətini təqdir edən silsilə məqalələrə rast gəlinir: “Müəlliflərinə təşəkkür etməklə yanaşı, onu da nəzərlərinə çatdırmaq istərdim ki, belə yazılar şəxsən nazir Ramil Usubovun özü tərəfindən heç də rəğbətlə qarşılanmır, əksinə, hər dəfə göstəriş verir ki, yazı müəllifinə və ya məqalənin dərc edildiyi KİV-in rəhbərinə onun etirazını çatdırım. Çünki bu xarakterli yazılar son vaxtlar o qədər çoxalıb ki, istər-istəməz oxucuda onların bir mərkəzdən məqsədli şəkildə təşkil olunduğu qənaəti yaradır. Hamının təvazökar və eyni zamanda əsaslı tənqidi sevən bir insan kimi tanıdığı Ramil Usubovun belə təriflərə ehtiyacı yoxdur. O, dövlət və xalqı qarşısında öz vəzifə borcunu yerinə yetirir və onun da fəaliyyətinə qiyməti verən cənab prezidentdir. Vətəndaş isə təşəkkürünü və ya iradını KİV-də ictimailəşdirməklə deyil, fərdi qaydada DİN-in ünvanına göndərə bilər. O ki qaldı hörmətli mətbuat nümayəndələrinə, onların da konkret olaraq nazir və ya başqa vəzifəli şəxs barədə deyil, yaxın zamanda öz 100 illik yubileyini qeyd edəcək Azərbaycan polisinin ümumi fəaliyyəti barədə yazmaları daha səmərəli və məqsədəmüvafiq olardı”.

# “Azərbaycanda uçuşların təhlükəsizliyi yüksək səviyyədə təmin olunur” - ABŞ-ın Federal Aviasiya Administrasiyası

**ABŞ-ın Federal Aviasiya Administrasiyası (FAA) Azərbaycan Respublikası üçün uçuşların təhlükəsizliyinin təmin olunmasına nəzarət sahəsində “1-ci kateqoriya”nı təsdiq edib.**

Bu barədə “APA-Economics”ə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyindən məlumat verilib.

“2014-cü ildə respublikada uçuşların təhlükəsizliyinin təmin olunması sahəsində aparılmış qiymətləndirmə nəticəsində ilk dəfə təqdim olunan bu səviyyə Azərbaycan aviaşirkətlərinin ABŞ-a birbaşa müntəzəm uçuşlara başlamalarına imkan verib. 2017 və 2018-ci illərdə Çikaqo Konvensiyasının beynəlxalq standartlarının tələblərinə uyğunluq qiymətləndirildikdən sonra ali ”1-ci kateqoriya" Azərbaycan üçün qüvvədə saxlanılıb.

FAA tərəfindən “1-ci kateqoriya”nın təsdiqi Azərbaycan Respublikası rəhbərliyinin uçuşların təhlükəsizliyinin təmin olunmasına və mülki aviasiya sahəsinin inkişafına göstərdiyi xüsusi diqqətin nəticəsidir", - deyə məlumatda vurğulanıb.

# Qubada itkin düşmüş alpinistlərin meyiti tapıldı

**Ötən il dekabrın 27-dən Fövqəladə Hallar Nazirliyinin (FHN) peşəkar xilasedicilərindən ibarət dəstələrin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının iştirakı ilə aparılan və hal-hazıradək davam edən axtarışlar nəticəsində dünən saat 18:00 radələrində axtarış işlərinin aparıldığı ərazidə təqribən 4 m dərinlikdə alpinistlərə aid çadırın yeri müəyyən edilib və ilkin olaraq 1 kişi meyiti aşkar edilib. Daha sonra həmin ərazidən digər iki alpinistin də cəsədi aşkar edilib.**

Qeyd edək ki, Gilavar" Hava və Ekstrim İdman Klubunun üzvləri Cəbrayılzadə Fəridə Zəbiyulla qızı, Hüseynov Babur Vaqif oğlu və Bünyatzadə Namin Nizami oğlu 2017-ci il dekabrın 23-də Quba rayonunun Xınalıq kəndindən Tufandağ istiqamətində yürüşə çıxaraq geri qayıtmayıblar.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin tərkibi dəyişdirilir

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin tərkibində dəyişiklik olacaq.**




Bu barədə modern.az-a Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin üzvü Asim Mollazadə məlumat verib.

A.Mollazadə bildirib ki, nümayəndə heyətində hər zaman rotasiyalar, dəyişikliklər olub:

“Nümayəndə heyətinin tərkibinə daxil olan deputatlar vəzifəyə təyin edildiyinə görə onların yerinə parlamentdən yeni üzvlər seçiləcək. Nümayəndə heyətinin tərkibinin dəyişdirilməsi yaxın vaxtlarda baş tutacaq”.

Qeyd edək ki, hazırda Azərbaycanın AŞ PA-dakı 12 nəfərlik nümayəndə heyətinə aşağıdakı deputatlar daxildir:

Səməd Seyidov (sədr), Qənirə Paşayeva, Fazil Mustafa, Sabir Hacıyev, Sahibə Qafarova, Sevinc Fətəliyeva, Elxan Süleymanov, Rəfael Hüseynov, Rövşən Rzayev, Müslüm Məmmədov, Elşən Musayev, Vüsal Hüseynov daxildir.

Lakin ölkə başçısının imzaladığı sərəncamla deputatlar Rövşən Rzayev “Dövlətqaçqınkom”un sədri, Vüsal Hüseynov isə Dövlət Miqrasiya Xidmətinin rəisi təyin edildiyindən onlar AŞ PA-ya gedə bilmirlər.

# Anar Məmmədovu Türkiyə şou-biznesi ilə nə bağlayır…

## Keçmiş nazirin oğlu atasının pullarını Türkiyə sənətçilərinə dağıdırmış

**Son vaxtlar keçmiş nazir Ziya Məmmədovun oğlu Anar Məmmədovun adı Türkiyə şou-biznesi ilə birgə hallanmaqdadır. Əvvəlcə bir müddət gözdən “itən” Anar Məmmədov İstanbulda məşhur müğənni Alişanın toyunda üzə çıxdı.**



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi toyun görüntülərində A.Məmmədovun da fotoları yer almışdı. Sonradan məlum oldu ki, Alişanın xanımı aktrisa Busə Varolun xınasında geyindiyi qırmızı libas Ziya Məmmədovun gəlini və Heydər Əsədovun qızı Fəridə Məmmədovanın sahibi olduğu moda evinə məxsusdur. Türkiyə mətbuatında da Məmmədovlarla Alişanın çox yaxın münasibətləri olduğu haqda məlumatlar dərc edilib.

Ümumiyyətlə, Anar Məmmədov Türkiyə şou-biznesində də kifayət qədər tanınır. Belə ki, onun məşhur türk müğənnisi Hadisəyə çimərlik bağışlaması uzun müddət mediada müzakirə edilmişdi.

Xatırladaq ki, A.Məmmədovun Hadisə ilə münasibətləri hələ 2009-cu ildən başlayıb. Həmin il Türkiyə mətbuatında azərbaycanlı nazir övladlarından birinin Hadisəyə onunla “baş-başa görüşmək” təklifi etdiyi haqda məlumatlar yayılmışdı. Türkiyə mediasında bu, “əxlaqsız təklif” kimi dəyərləndirilirdi. Məlumata görə, Hadisə bundan qəzəblənib və Bakıda olarkən hoteldən bayıra çıxmayıb.

Türkiyə mətbuatının yazdığına görə, nazir oğlu ona “Bakıya konsert verməyə deyil, mənimlə baş-başa yemək yemək üçün gəldin. Səni gözləyirəm” məzmunlu mesaj göndərib. Buna etiraz edən Hadisəyə növbəti dəfə “İstəyirsə, ansamblla birlikdə gəlsin, amma Hadisə mənim yanımda oturacaq” mesajı göndərilib. Bu təklif də keçərli olmayıb. O dövrdə mətbuatda müğənniyə belə bir mesajı göndərənin kimliyi də yazılmışdı və onun Anar Məmmədov olduğu bilinmişdi. Məlumata görə, Hadisənin Bakıdakı konsertdə səhnəyə 2 saat gec çıxmasına səbəb də məhz A.Məmmədovun məlum təklifi olub.

İllər sonra isə Anar Məmmədovun müğənni Hadisə üçün Bodrumda böyük bir çimərlik aldığı məlum oldu. Məlum olduğu kimi, həmin “La Play” adlanan çimərlik 2016-cı ildə tikilib və ilk sahibi A.Məmmədov olub. Göründüyü kimi, keçmiş nazirin oğlu atasının pullarını türk sənətçilərinə dağıdırmış...

Lakin bu günlərdə məlum olub ki, həmin çimərliyin sənədləşməsi tam başa çatmadığı üçün 2017-ci ildə Bodrum şəhər bələdiyyəsi ictimai yerə aid ərazinin zəbt edilməsi iddiası ilə məhkəməyə müraciət edib. Məhkəmə prosesi zamanı müğənni Hadisədən obyektin sənədlərini təqdim etməsi tələb olunub. İş adamı Anar Məmmədovdan “La Plaj”ın sənədlərini ala bilməyən Hadisə son məhkəmə prosesində şokla üzləşib. Bodrum şəhər məhkəməsi obyektin qanunsuz olması səbəbi ilə dağıdılması barədə qərar çıxarıb.

Bir faktı da qeyd edək ki, illər öncə Anar Məmmədovun adı məşhur türk müğənnisi İbrahim Tatlısəsin adı ilə də birgə çəkilirdi. Belə ki, o, müğənninin Türkiyə telekanallarından birində fələstinli uşaqlar üçün həyata keçirdiyi xeyriyyə marafonuna telefonla qoşularaq, 50 min lirə ayırdığını bəyan etmişdi. Səsini eşidən kimi İbrahim Tatlısəs kimi məşhur müğənni də onu tanıya bilmişdi.

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**



Maqdalena Qrono

# “Ermənistandakı dəyişiklik Dağlıq Qarabağ münaqişəsinin həllində yeni imkanlar yaradır” - BBQ eksperti

**Tbilisidə V Cənubi Qafqaz Təhlükəsizlik Forumunun “Cənubi Qafqazda təhlükəsizlik problemləri” mövzusunda keçirilən sessiyasında Dağlıq Qarabağ münaqişəsi geniş müzakirə olunub.**

APA-nın Gürcüstan bürosunun məlumatına görə, Beynəlxalq Böhran Qrupunun Avropa və Mərkəzi Asiya üzrə proqram direktoru Maqdalena Qrono münaqişənin ciddi təhlükə olduğunu deyib. Ekspert bildirib ki, münaqişənin həllində diplomatik danışıqlarla yanaşı, münaqişə tərəflərinin bir-birinə yaxınlaşdırılması üçün digər danışıqlar formatından da istifadə oluna bilər: “Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə daha fəal cəlb olunmalıdır”.

Ermənistanda baş vermiş son dəyişikliklərə toxunan M.Qrono qeyd edib ki, yeni hökumət Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar üçün yeni imkanlar yaradır.

**Sessiyada çıxış edən Ermənistanın Milli Müdafiə Araşdırma Universitetinin vitse-prezidenti Benyamin Poqosyan deyib ki, Ermənistanın yeni hökuməti Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fərqli yanaşma nümayiş etdirmir:** “Yeni hökumətin münaqişənin həlli ilə bağlı aparılan danışıqlarda mövqeyinin dəyişəcəyini istisna edirəm”.

**Sonra çıxış edən Azərbaycan Diplomatik Akademiyasının dosenti, professor Anar Vəliyev bildirib ki, Azərbaycan Ermənistan hökumətində baş vermiş dəyişikliklərə pozitiv yanaşır:** “Yeni hökumət üçün əvvəlki hakimiyyətlə əlaqəsinin olmadığına görə münaqişənin həlli ilə bağlı danışıqları aparmaq asan ola bilər”.

# “Nar”ın dəstək olduğu “Microsoft Imagine Cup” müsabiqəsinin qalibləri bəlli oldu

**Azərbaycanda startapların formalaşması və genişləndirilməsinə xüsusi önəm verən “Nar” operatorunun dəstəklədiyi “Microsoft Imagine Cup” innovasiya müsabiqəsinin milli turu yekunlaşıb. “Imagine Cup 2018" müsabiqəsinin milli turu çərçivəsində münsiflər heyəti unikal fikirlər, yenilikçi texnoloji həllər, layihələri layiqincə təqdimetmə bacarığını qiymətləndirmiş, gənc ixtiraçılara ”Made in Azerbaijan" məhsullarını yaratmaqda dəstək olub.**

**Milli Turda 9 ali təhsil müəssisəsi və “SABAH Qrupları”ndan olan komandalar iştirak ediblər. Bu mərhələnin qalibləri mayın 15-də Bakıda təşkil olunan mükafatlandırma mərasimində münsiflər tərəfindən elan olunub. Üçüncü yerə “Ağıllı dibçək” layihəsinə görə “GardenX” komandası layiq görülüb. İkinci yeri həvəskar bələdçilər üçün mobil tətbiq hazırlayan “Guide-Amigo” komandası tutub. Bu tətbiq vasitəsilə istənilən şəxs şəhərin müxtəlif məkanlarında özünə bələdçi tapa bilər. Müsabiqənin birinci yerinə isə “KubiRub” komandası layiq görülüb. Bu komanda “Rubik kubu” məşhur oyununun mobil versiyasını hazırlayıb. Ənənəvi rənglərdən fərqli olaraq bu virtual kubun tərəflərində müxtəlif şirkətlərin loqotipləri yer alıb ki, hər hansı bir tərəfi yığan istifadəçi şirkətlərdən real bonuslar qazanacaq.**




**Yerli final mərhələsinin qalibi ABŞ-da keçiriləcək finalda iştirak etmək, layihənin gələcək inkişafı üçün nəzərdə tutulan və müsabiqənin əsas mükafatı sayılan 100 min ABŞ dolları uğrunda mübarizəni davam etdirmək imkanı əldə edəcək. Bu turun qalibi və gümüş mükafatçısı mayın 19-da Minskdə keçiriləcək MDB ölkələri üzrə regional finalda iştirak edəcək. Regional mərhələdə komandaların layihələrini azərbaycanlı mütəxəssislərin də yer aldığı beynəlxalq münsiflər heyəti qiymətləndirəcək.**

**Təhsil, elm və mədəniyyətin inkişafı “Nar” korporativ sosial məsuliyyət (KSM) strategiyasının başlıca prioritetlərindəndir. Mobil operatorun KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.**

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfər edib. O, öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.**

# Prezident İlham Əliyev Naxçıvandan mühüm mesajlar verdi

## **Dövlət başçısı:** "Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər"





Daha sonra dövlət başçısı Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov dövlət başçısına kompleks barədə məlumat verib.

Bildirilib ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada, həmçinin iri tullantı tutucu, qum və yağ tutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. İcrasına 2014-cü ildə başlanılan layihə ötən ilin oktyabrında tamamlanıb.

Layihənin icrası nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaq.

Prezident İlham Əliyev kompleksi işə salıb.

Bundan başqa, prezident İlham Əliyev Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak edib.

APA-nın məlumatına görə, dövlət başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış olub. Dövlət başçısı məktəbin kollektivi və ictimaiyyətin nümayəndələri ilə görüşüb.

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə də tanış olub.**

**Prezident qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan ordusu ən müasir silahlar, texnika ilə təchiz edilib:** "Biz son illər ərzində Azərbaycan ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın yerləşməsinə, coğrafi relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir".

**İ.Əliyev prezident kimi Naxçıvana sayca 14-cü dəfə səfər etdiyini bildirib:** "Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl - 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu da edirik".

**Prezident qeyd edib ki, Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır: "Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərib və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülüb. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilib. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar. O illərdə Naxçıvan üçün və ümumiyyətlə Azərbaycan üçün həlledici məsələlər öz həllini tapıb. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilib. Ölkəmizin müstəqilliyi işində Naxçıvanın çox böyük rolu olub. Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etdi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan vermədi. O vaxt Naxçıvan "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlanırdı və Ulu Öndərin təklifi ilə bu addan sovet, sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş verib. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, Ulu Öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində Ulu Öndərin və naxçıvanlıların çox böyük rolu var".**

Daha sonra prezident Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib.

APA-nın məlumatına görə, dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib.

**Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev ali təhsil ocağının kollektivi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.**

**Prezidenti İlham Əliyev görüş zamanı bildirib:** "Azərbaycan hazırda Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə ciddi məşğuldur. Azərbaycan ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Biz bu layihənin tam başa çatması üçün böyük maliyyə vəsaiti ayırmışıq. Ümid edirəm ki, gələcək üç il ərzində bu layihə tam istifadəyə veriləcək. Hər halda, planımız bundan ibarətdir. Belə olan halda Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaq".

**"Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb" - deyə, prezident söyləyib:**

"Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb".

# "Dərman mafiyası" gömrük terminalındakı 3 rentgen aparatını bloklayıbmış - yeni təfərrüatlar

## İstintaqa təsir edə biləcək iki şəxs hələ də azadlıqdadır

**Dövlət Gömrük Komitəsi (DGK) yüksək vəzifəliləri ilə əlbir olan "dərman mafiyası"nın istintaqı davam edir. Aprelin 30-da DGK-nın yüksək vəzifəli şəxslərinin də içində olduğu "dərman mafiyası" ifşa olunub. Üç gün sonra mayın 3-də isə DGK sədrinin müvafiq əmrinə əsasən, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev, Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyev və Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin 1-ci yük şöbəsinin rəisi Araz Məmmədov sərəncama götürülüblər.**




Hazırda araşdırmalar davam edir. Redaksiyamıza daxil olan məlumata görə, ölkə ərazisində dövriyyəsi qadağan olunan dərman vasitələri Bakı Hava Limanında 3 rentgen aparatından keçirilsə də, həmin aparatların yaddaşlarından görüntülərin ötürülməsi bloklanıb. Bu yolla ölkəyə illərlə heç bir qeydiyyatsız-filansız dərman vasitəsi daşınıb. Gələn məlumatlarda deyilir ki, Araz Məmmədovla Sadiq Abduyev yaxın qohumdular. Onların hər ikisi bir general tərəfindən himayə olunur. Bu səbəbdən də hazırda istintaqda DGK rəsmisi tək yalnız Fikrət Qədiməliyevin adı əsas fiqurant kimi çəkilir. Sadiq Abduyev isə sanki heç komitədə yüksək post tutmayıb. Onun "dərman mafiyası" ilə əlaqələri də olmayıb. Əslində isə "dərman mafiyası" adlı şəbəkə ilə DGK rəsmilərindən təkcə Fikrət Qədiməliyev işləməyib. Onun işi ölkəyə gələn dərmanların sənədlərinin dəyişdirilməsi olub. Sadiq Abduyevlə Araz Məmmədovun işi isə dərman vasitələrinin ölkə ərazisinə daxil olmasını təmin etməkdən ibarət olub. Amma bu gün Sadiq Abduyevlə Araz Məmmədov istintaqdan kənar gəzirlər. Aptek şəbəkələrində topdan dərman vasitələrinin satışı ilə məşğul olanlar isə Fikrət Qədiməliyevi, Sadiq Abduyevi və Araz Məmmədovu iri dərman alverçiləri kimi tanıyırmışlar.

Ötən sayımızda yazmışdıq ki, DTX "dərman mafiyası"na qarşı əməliyyatı gerçəkləşdirəndən sonra Sadiq Abduyevin də adı istintaqa cəlb edilən şəxslərin siyahısında olub. Sonradan isə işə Sadiq Abduyevin general qohumu qarışıb və onu istintaqçıların əlindən qurtara bilib. İndi məlum olur ki, Araz Məmmədovu da elə həmin general istintaqçıların əlindən alıb. Onların əvəzinə isə istintaqa ölkəyə mal buraxmaq səlahiyyəti olmayan əməkdaşlar cəlb olunublar. Onların səlahiyyət həddi Bakı Hava Limanındakı xüsusi mühafizə zonasına mal-materialların buraxılması üçün yetərli olmayıb. Belə əmrlər verilməsi Sadiq Abduyevin səlahiyyətində olub ki, o da, onu aeroportdakı dəstəkçisi və qohumu Araz Məmmədov da hazırda azadlıqda gəzirlər.

Fikrət Qədiməliyevə gəlincə isə o, hazırda ev dustağıdır. Tibb generalının ev dustaqlığı isə onun xəstəliyi ilə əlaqələndirilib.

Bu həmin vaxt baş verib ki, sıravi gömrükçülər istintaqa təzyiq etmək ehtimalı ilə həbsə alınıblar. Üstəlik, aeroportda 3 rentgen aparatının yaddaşını bloklayıb ölkəyə illərlə mal daşınmasını təmin edən gömrük rəisləri ortalıqda gəzdikləri bir vaxtda məhkəmə belə bir qərar verib. Halbuki istintaqa mane ola biləcək gücdə olan iki şəxs - Sadiq Abduyevlə Araz Məmmədov azadlıqdadırlar.

Dövlət Təhlükəsizlik Xidməti əməkdaşlarının bu il aprelin 30-da keçirdikləri əməliyyat zamanı əczaçılıq sahəsində bir sıra sahibkarlıq subyektlərinin daha çox gəlir əldə etmək üçün qeyri-leqal fəaliyyətlə məşğul olmaları üzə çıxıb. Belə fəaliyyət vergidən yayınmaqla yanaşı əhalinin sağlamlığına ciddi təhlükə yaradır. Keçirilmiş birgə tədbirlər zamanı belə qanunsuz fəaliyyətlə məşğul olan mütəşəkkil dəstə müəyyən edilərək ifşa olunub. Əməliyyat-istintaq tədbirləri nəticəsində Anar Məmmədova məxsus Yasamal rayonunda yerləşən "Zeytun" aptekinə baxış zamanı dövlət qeydiyyatından keçməyən, mənşəyi naməlum 75 adda müxtəlif dərman vasitələri aşkar edilərək götürülüb. Davam edən araşdırmalarla Yasamal rayonu ərazisindəki "İrem", "Qlükoza", "Avas", "Fatimə", Nəsimi rayonu ərazisindəki "Zeytun", "Medical City", "Elit", "Vahid", "Dokta Elite", Nərimanov rayonu ərazisindəki "Şəfa", "Şəfa Zeytun 426", "Təbib" apteklərinə satılmış müxtəlif sayda dövlət qeydiyyatından keçməmiş dərman vasitələri aşkar edilərək dövriyyədən çıxarılıb. Hazırda qeyd olunan apteklərin sahibləri, işçiləri, apteklərlə şərikli işləyən xəstəxanaların baş həkimləri, şöbə müdirləri də soğru-sual edilir. Rəsmi məlumatdan da məlum olduğu kimi, "dərman mafiyası" ilə DGK rəsmiləri qaçaq yolla ölkəyə gətirilən dərman preparatlarına görə 25 faiz haqq alıblar. İlkin istintaqla müəyyən olunub ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan Respublikasının vətəndaşı Anar Məmmədov 2016-cı ildən aprelin 30-dək satış məqsədilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 %-i dəyərində haqq alıblar. Dərmanların ölkəyə qeydiyyatsız idxalını, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasını təmin ediblər.

❑ **E.HÜSEYNOV,**
**"Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018



# Qərb Əli Kərimlini dəftərindən sildimi?

## Niyaməddin Orduxanlı: "Amerika Əli Kərimliyə qeyri-ciddi şəxs kimi baxır"

**Son illərdə nüfuzlu beynəlxalq qurumların AXCP sədri Əli Kərimliyə soyuq münasibəti açıq görünür. Mayın 9-da ABŞ Konqresində Azərbaycanla bağlı keçirilən dinləmələrə Ə.Kərimlinin (və ya onu təmsil edə bilən adamın) deyil, Avropada yaşayan Meydan.tv-nin qurucusu Emin Millinin dəvət alması AXCP liderinin adının üstündən xətt çəkilməsi kimi izah edilir.**

**BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı** məsələyə cür şərh verdi: "ABŞ Konqresi dinləmələrə Azərbaycan müxalifətindən heç bir siyasi təşkilatı və ya partiya sədrini dəvət etməyib. Bilirsiniz ki, bu günə kimi Konqresin Azərbaycanla bağlı dinləmələri olub və əsasən də tədbirə AXCP dəvət olunurdu. Keçən dəfə dinləmələrə Əli Kərimli dəvət olunmuşdu. O da həmin dinləmələrə İngiltərədə yaşayan tələbə oğlu Türkel Kərimlini göndərmişdi. Türkel Kərimli də dinləmələrdə atasının dəvəti ilə gəldiyini və orada yalnız atası Əli Kərimlini təmsil etdiyini bildirmişdi. Məncə, Amerika artıq Əli Kərimliyə qeyri-ciddi şəxs kimi baxır. Bunun bir sıra səbəbləri var. Əli Kərimlinin təmsil olunduğu Milli Şurada böyük əksəriyyət İranın təsirində olan şəxslərdir. Əli Kərimli prezident seçkiləri ərəfəsində Bakı şəhərində mitinqlər keçirdi. Həmin mitinqlərdə iştirak edənlərin 80%-i İran rejiminin təsirində olan şəxslər idi. Onun mitinqi sanki İranda keçirilən bir mitinqə oxşayırdı. Məncə, ABŞ-ın Əli Kərimlidən imtina etməsinin əsas səbəblərindən biri budur. Dinləmələr zamanı ABŞ nümayəndəsi Odri Alştadt Kərimlini Azərbaycan müxalifətinin "marginal şəxsi " və ya " qocası" adlandırıb. Hamı bilir ki, ABŞ Konqresində məruzə edən şəxslər təsadüfi fikirlər səsləndirmir. Əli Kərimli də bunu çox yaxşı bilir. Ona görə də bir neçə gündür bütün imkanları ilə Emin Millini facebook sosial şəbəkəsində trolları ilə təhqir etdirir".

**N.Orduxanlı AXCP sədrinin İranla əlaqələrindən də danışdı:** "Amerika çox yaxşı bilir ki, hazırda Əli Kərimli İran molla rejimi ilə əməkdaşlıq edir. Amerika çox yaxşı bilir ki, Əli Kərimli siyasi baxımdan çox qorxaq və etibarsız biridir. 2013-cü ildə Azərbaycanda keçirilən prezident seçkilərində Rusiyanın layihəsi olan Milli Şurada Əli Kərimli baş rolda yer almışdı. Açıq şəkildə Rusiyanın namizədi olan Rüstəm İbrahimbəyovu dəstəkləyirdi. Hətta Milli Şura Rusiya prezidenti Vladimir Putinə şanlı məktub da yazmışdı. Putini " böyük demokrat" adlandırmışdı. Heç də təsadüfi deyil ki, Konqresdə Alştadt Əli Kərimlini Azərbaycanda resursları olmayan biri kimi təqdim etdi və Kərimlinin irəli çıxmağa heç bir şansları olmadığını səsləndirdi. ABŞ çox yaxşı bilir ki, Əli Kərimli indiki hakimiyyətlə çox yaxın əməkdaşlıq edib və xəyanətə görə qovulub. Əli Kərimli ona böyük etimada göstərən Əbülfəz Elçibəydən tutmuş tələbə yoldaşlarına, dostlarına, hətta onun üçün sinəsini güllə qabağına vermiş şəxslərə xəyanət edib. Bu adamın mahiyyəti budur. Onlar çox yaxşı bilir ki, Azərbaycan cəmiyyətində Kərimlinin reputasiyası çox aşağıdır. Bu günlərdə Əli Kərimli ABŞ şokunu yaşamaqdadır. Fikir verin, bütün ətrafında olan şəxsləri səfərbər edib ki, Emin Millini təhqir etsin, aşağılasın, onu hörmətsiz biri kimi təqdim etsinlər. Kərimli çox yaxşı bilir ki, Avropadakı mühacirlərə olan münasibət bunu ikinci plana atır. Və əsas narahatçılığı, qorxusu budur. Düşünür ki, ABŞ yenə də bununla əməkdaşlıq etməlidir və radikal müxalifət deyiləndə yalnız və yalnız Əli Kərimli nəzərdə tutulmalıdır. Bütün günü facebookda canlı efirlərə qoşulur və daha çox hakimiyyətə qarşı radikal olduğunu nümayiş etdirir. İnanmıram ki, qısa zamanda Əli Kərimli "Emin Mill silləsindən" ayılsın. Hətta görün vəziyyət necədir ki, bütün ömrünü Əli Kərimlinin müdafiəsinə həsr edən, qohumluq əlaqələri də olan Xədicə İsmayıl Əli Kərimlini deyil, Emin Milli dəstəkləyir. Xədicə İsmayıl status yazaraq Əli Kərimlini, Cəmil Həsənlini Emin Millidən üzr istəməyə çağırış edir. Əslində hamı bilir ki, Xədicə İsmayıl ABŞ-ın agentura şəbəkəsində olan şəxslərdən biridir. Xədicə İsmayıl da Emin Millini müdafiə etməklə ABŞ-ın Əli Kərimliyə münasibətini nümayiş etdirir. Xədicə İsmayılın ona qarşı çıxması tam əminlik yaradır ki, ABŞ Kərimlidən imtina edib".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Meydan.tv ilə Cəmil Həsənlinin virtual savaşı pik həddə

## Milli Şura sədri telelayihəyə ayrılan qrantları yada saldı, jurnalistlərdən sərt cavablar aldı

**Son bir həftədə Avropa və Azərbaycandakı müxalifət arasında başlayan virtual "müharibə" davam edir. Yada salaq ki, savaş Avropada yaşayan Meydan.tv-nin qurucusu Emin Milli ilə AXCP lideri Əli Kərimli arasında başlasa da, artıq başqa istiqamətlərə yönəlib. Kərimlinin müdafiəsinə qalxan Milli Şura sədri Cəmil Həsənli ilə hazırda Meydan.tv əməkdaşları arasında "qızğın döyüşlər" gedir.**

**Tarixçi professor Meydan.tv-ni qərəzli olmaqda suçlamasına ən sərt reaksiya meydan.tv-nin əməkdaşı Orxan Məmmədən gəlib:** "Milli Şura üzvləri təkcə son 6 ayda Meydan.tv-də yayımlanan 30-dan çox veriliş və reportajda söz sahibi olublar. Şəxsən Əli Kərimli elə həmin müddət ərzində Meydan.tv-də saatlarla canlı yayımda danışıb, heç bir senzurasız. İndi Cəmil Həsənli Emin Milliyə əsəbindən yazıb ki, son vaxtlar Meydan.tv-də Milli Şuraya məhdudiyyət qoyulur. Bunu demək ən azı sizin üçün ayıb olmalıdır, Cəmil bəy. Axı bu boyda komandanın haqqını tapdalamaq olmaz. Direktorumuzu nə qədər tənqid edirsiniz edin, buna 2-3 gündür heç qarışmırıq da. Amma Meydan.tv-nin komandasına edilən haqsızlığa göz yuma bilmərəm".

**Bu cavabdan sonra Milli Şura sədri bir-birinin ardınca jurnalistə yönəlik statuslar paylaşaraq, onun üzr istəməsini tələb edib. Bu statuslardan ən çox diqqətçəkəni təqdim edirik:** "Telejurnalist Sevinc Osmanqızına rəhbərlik tərəfindən bildirilib ki, Milli Şura və Xalq Cəbhəsinə bu media qurumunda moratorium, yəni qadağa qoyulub, əlavə edilib ki, bu, bizim media siyasətidir və onu pozmaq olmaz. Əli Kərimli ilə apardığı bir videomüsahibəyə görə jurnalistə irad bildirilib və ona moratoriumu pozmamaq barədə xəbərdarlıq edilib. Bəzi dostlar unudurlar ki, Meydan.tv-ni onların öz vəsaitləri hesabına deyil, demokratik qurumlardan aldıqları qrant vəsaitləri hesabına fəaliyyət göstərir. Həmin təşkilatlar qarşısında media qurumunun ayrı-seçkilik etməmək, tərəfsiz, qərəzsiz, obyektiv media siyasəti yeritmək barədə öhdəlikləri var. Son vaxtlar belə məqamlarda bizə necə davranmağı tez-tez xatırlatmağa çalışan məşhur media təmsilçilərindən, tərəfsiz qələm sahiblərindən soruşuram: belə faktlar açılandan sonra diskriminasiyadan uzaq, tərəfsizliyə, qərəzsizliyə, obyektivliyə iddia edin bir mətbuat orqanı necə hərəkət etməlidir?!"


Sevinc Osmanqızı


Cəmil Həsənli

**C.Həsənlinin bu statusuna ən tutarlı cavabı Meydan.tv-nin əməkdaşı Sevinc Vaqifqızı verib:** "Cəmil bəy, mən də bunları yazmaq istəməzdim, amma siz bu yazınızla məcbur etdiniz. Özünüzdən müsahibə alıb Sevinc Osmanqızına göndərmisiniz. Bu da elə təqdim olunub ki, guya Sevinc Osmanqızı sizdən müsahibə alıb. Müsahibə ilə bağlı şübhələr yarananda Sevinc xanım etiraf edib ki, siz ona hazır müsahibə göndərmisiniz. Bundan sonra belə halların baş verməməsi üçün ona xəbərdarlıq edilib. Siz yəqin bilirsiniz ki, bizim işimiz sual verməkdi, öz-özündən müsahibə alıb göndərən adamları yayımlamaq deyil. Bu hərəkəti də heç sizə yaraşdırmamışdım. Fikirləşirəm ki, kifayət qədər savadlı və hazırcavab şəxssiniz və suallar qarşısında heç də aciz qalmazdınız. Biz hökumət mediası deyiliksə, o demək deyil ki, sizin media olmalıyıq, sizin təbliğatınızı aparmalıyıq. Evinizdə oturub hər gün sizdən müsahibə, şərh alınmasını gözləyə bilməzsiniz. Hərəkətiniz varsa, sizi narahat edib efirə qoşacağıq, yox, yoxdursa, sizin və tamaşaçının vaxtını almayacağıq".

**Qeyd edək ki, qrant ittihamı tək C.Həsənli tərəfindən E.Millinin ünvanına səslənməyib. S.Osmanqızı Milli Şura sədri və qurumun Koordinasiya Şurasının üzvü Gültəkin Hacıbəyli ilə etdiyi canlı yayımı facebook səhifəsində bu sözlərlə paylaşıb:** "Emin Millini danışdıran qrantlardırmı?

Meydan.tv-nin əməkdaşları özləri belə qrantların haradan gəldiyini bilmirlər. Bu, rəhbərlik tərəfindən onlardan gizli saxlanılır. Halbuki sponsorla mətbuat qurumu arasında redaktor siyasətinə müdaxilə olmayacağına dair şərt müqavilədə öz əksini tapmalıdır. Mənbəyi gizli saxlanan qrantlarla müstəqil mətbuat orqanı qurmaq olarmı?"

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı müxalifət daxilində hazırda mövqe döyüşlərinin getdiyini söylədi:** "Daha çox qrant almaq, davamlı olaraq belə layihələrin içərisində olmaq məsələsidir. Artıq pərdələr açılır, arenada bütün oyunçuların mahiyyəti görünür. Dəfələrlə bunu söyləmişik ki, Azərbaycanın radikal müxalifəti daha çox radikal mövqedə dayanmaq, barışmaz münasibət ifadə etmək, hakimiyyətə qarşı kəskin mövqe sərgiləmək, bu və ya digər məsələlərlə bağlı mitinqlər keçirməklə beynəlxalq qurumlardan qrantlar almaq və bu layihələrin içərisində möhkəmlənməkdir. Bir sözlə, ölkə daxilində fəaliyyət göstərən, xaricdə siyasi mühacir adı ilə yaşayanlar bizneslərini bu yolla qururlar. Vaxtilə bu işlə Leyla Yunus və Xədicə İsmayıl məşğul olurdu. İndi isə Avropada yaşayanlar, eləcə də Azərbaycan daxilində AXCP sədri Əli Kərimli və Milli Şura rəhbəri Cəmil Həsənli qrant almaq uğrunda savaşırlar. Bunun müxalifətçiliyə heç bir aidiyyəti yoxdur. Niyyət bu statusdan istifadə edib öz biznesini qurmaq, imkanlarını yüksək səviyyədə təmin etməkdir. Bir misal çəkəcəm. 25 ildir deputatam. Övladlarımın xaricə getmək arzuları olsa da, bunu reallaşdıra bilməmişəm. Çünki buna maliyyə imkanlarım olmayıb. Nəvəm yaxınlarda baxmayaraq ki, xarici dövlətlərdə oxumaq imkanları qazanmışdı, lakin biz araşdırdıq və bəlli oldu ki, ailə büdcəmiz onu oxutmağa imkan vermir. Ona görə də onu nisbətən az maliyyə tələb edən Türkiyədəki universitetə yönəltdik. Bunları deməkdə məqsədim odur ki, radikal müxalifətin övladları Avropanın bahalı, sayılıb-seçilən universitetlərində oxuyurlar, orada özlərinə həyat qururlar. Eyni zamanda özlərini siyasi mühacir adlandıranlar Avropada həyatlarını yüksək səviyyədə qurmaqdadırlar. Bunların arxasında Azərbaycanı sevməyən qüvvələrin bəd niyyətləri dayanır. Bu niyyətlərin reallaşması üçün Azərbaycandakı antimilli qüvvələrdən istifadə edirlər. Necə deyərlər, pulunu verir, rəsmi sifariş verir ki oyna, əgər oynamasan rəqsinin pulunu verməyəcəm. Bu da o deməkdir ki, dediklərimi etməsən qrant ala bilməyəcəksən. Emin Milli bunları gənclərin prosesə qoşulması kimi izah edir. Əli Kərimli artıq bu cür dinləmələrə dəvət almır, yəni oğlu iştirak etmir. Azərbaycana qarşı qara piar kampaniyasında iştirak etməklə aldıqları qrantlar artırmış olurdular. İndi bu imkanların onların əlindən çıxdığını görürlər. Harada Azərbaycana qarşı dinləmələr, müzakirələr varsa, mütləq orada bunlar yer alırlar. Onlara qarşı xalqımızın münasibəti çox mənfidir. Bu, onların təşkil etdikləri mitinqlərdə özünü açıq şəkildə göstərir. Milli Şuranın keçirdiyi mitinqlərə heç min nəfər də gəlmir. Artıq onlar ofis partiyalarına çevriliblər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# AŞ PA-dan skandal qərar - Səməd Seyidova sanksiya tətbiq edildi

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Prosedur qaydaları, immunitetlər və institusional məsələlər komitəsi korrupsiyada adı hallanan AŞ PA üzvlərinə qarşı sanksiyalar tətbiq edib. Sanksiyalar Pedro Aqramunta 10 il, digər üzvlər Sezar Florin Preda, Səməd Seyidov və Cordi Xuclaya qarşı 2 il ərzində qüvvədə olacaq. Qurumun mayın 16-da yaydığı rəsmi məlumatda adı sadalanan bu dörd deputatın davranış kodeksini ciddi şəkildə pozduğu, onların müvəqqəti olaraq assambleyanın mandatından məhrum edildiyi bildirilir. Onlar təyin olunma və ya məruzəçi kimi çıxış etmək, bir sıra əsas vəzifələrə qoşulmaq və ya seçkiləri müşahidə etmək kimi səlahiyyətlərindən məhrum ediliblər.**

## **Deputat:** "Bu o deməK deyil ki, biz bu meydanı tərk edəcəyik"

Sadalanan dörd AŞ PA üzvü bu müddət ərzində seçki müşahidəçisi kimi iştirak edə, heç bir komitənin, ya alt komitənin sədri ya sədr müavini ola, AŞ PA-nın prezidenti olmaq üçün seçkilərdə namizədliyini irəli sürə bilməyəcək. Onlar həmçinin, assambleyanı və ya öz komitələrini təmsil etmək, Avropa Şurasının icra orqanına-Nazirlər Komitəsinə suallar vermək hüququndan da məhrum ediliblər.

S.Seyidov Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəridir.



"Heç kim Azərbaycanı və onun üzvlərini Avropa Şurasından kənarlaşdıra bilməz, sanksiyalar nə söz deməyimizə, nə də sənəd qəbuluna əngəl yarada bilər"

**Mayın 16-da günün sonuna yaxın Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri, deputat Səməd Seyidov AŞ PA tərəfindən ona sanksiya tətbiq edilməsi ilə bağlı mətbuat konfransı keçirib. Konfransda çıxış edən S.Seyidov qeyd edib ki, bu məsələ ilə bağlı onu 3 saat istintaqa çəkiblər:** "Dedilər, siz, sadəcə, etiraf edin ki, burada qeyri-qanuni işlərlə məşğul olmusunuz. Təbii ki, belə şey olmayıb. Azərbaycan öz doğru qanuni yolu ilə gedib. Mənim nümayəndə heyətindən çıxarılmağımla bağlı yayılanlar yanlışdır. Mən bu sanksiyaları yerinə yetirməyə məcburam. Ancaq orada təmsilçiliklə bağlı kimin olmasını partiyamız müəyyən edəcək. Bu məsələ müzakirə əsasında məlum olacaq. Bu mən, yaxud başqaları da ola bilər".

**S.Seyidov deyib ki, Azərbaycan Avropa Şurasının müxtəlif strukturları ilə konstruktiv əməkdaşlıq edir və bundan sonra da davam edəcək:** "Ancaq dünənki qərar növbəti ikili standartlarla dolu yanaşmadır. Dünən həmin komitədə bir neçə üzv və mən sanksiyalarla üzləşmişik. Bu birinci dəfə deyil. Bu sanksiyaların tətbiqinə yazılı məktubumda qiymət vermişəm. Məktubda da qeyd etmişəm ki, bunun heç bir əsası yoxdur və Azərbaycana qarşı olan qərəzli münasibətdir".

**S.Seyidov vurğulayıb ki, bu sanksiya nümayəndə heyətinə heç bir mənfi təsir göstərməyəcək. Bu, Avropa Şurasının özünə mənfi təsir göstərəcək:** "Heç kimi məhkəmə olmadan, hüquqi prosedur olmadan ittiham etmək olmaz. Bizim fikrimiz özünü doğrultdu, həmin komitənin böyük hesabatı Azərbaycana qarşı yönəlmişdi. AŞ PA-nın fəaliyyəti şəffaf deyil. Azərbaycanla bağlı qəbul olunmuş qərarların əksəriyyəti mənfidir. Guya beş il bundan öncə kimsə kiməsə deyib ki, monitorinq komitəsinin rəyi Səməd Seyidova əvvəlcədən bəlli idi. Dünən qəbul olunmuş sənəd düzgün qiymətləndirilməlidir. Heç kim Azərbaycanı və onun üzvlərini Avropa Şurasından kənarlaşdıra bilməz. Sanksiyalar nə söz deməyimizə, nə də sənəd qəbuluna əngəl yarada bilər. Bu, hansısa seçki prosesində müşahidəçi qismində iştirak etməyə və hansısa ölkə ilə bağlı rəylə çıxış etməyə imkan vermir.

Avropa Şurası dəyişməlidir. Bu cür Avropa Şurası ola bilməz, bu qurum krizis yaşayır. Lakin Avropa Şurası hazırkı vəziyyətdədirsə, bu o demək deyil ki, biz bu meydanı tərk edəcəyik. Bizim bayrağımız ulu öndərimiz tərəfindən Avropa Şurasının binası qarşısında yüksəldilib. Orada olmaq bizim üçün bir meydandır, imkandır. Heç kim düşünməsin ki, biz bu imkandan, meydandan imtina edəcəyik".

S.Seyidov bildirib ki, AŞ PA-da sanksiyaya məruz qalan şəxslər Ermənistanın işğalına münasibətdə Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyən şəxslərdir: "Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində fəaliyyət göstərən insanlar daim qurumda sanksiyaya məruz qalıb. Ən əsası da bir neçə komitədə, bir neçə iclasda Dağlıq Qarabağ və ətraf rayonların azad olunması ilə bağlı məsələlər qaldıran insanlar bu gün sanksiyaya məruz qalıb.

Əsas hədəf hansısa şəxs deyil. Nümayəndə heyətimizin rəhbəri bu gün bir şəxsdir, sabah başqa şəxs ola bilər. Əsas məsələ Azərbaycanın milli maraqlarıdır. Biz buna müdaxiləyə imkan verməyəcəyik. Azərbaycanın AŞ PA-da fəaliyyətini daha da yüksək formada təşkil edəcəyik. Bu sanksiya Azərbaycana deyil, AŞ PA-nın öz nüfuzuna mənfi təsir göstərəcək. Biz növbəti sessiyada iki nəfərlə də olsa, təmsil olunacağıq, boş qalan yerlərə də şəxslər seçiləcək.

Azərbaycan nümayəndə heyətini heç kim Avropa Şurası Parlament Assambleyasından uzaqlaşdıra bilməz. Çünki qurumda nümayəndə heyətini Azərbaycan özü müəyyən edir.

Bir daha deyirəm ki, sanksiya qərarı Azərbaycana qarşı ikili standartların təzahürüdür. Dəfələrlə o qurumda Azərbaycana qarşı ikili standartların şahidi olmuşuq. Ona görə də sanksiya qərarının heç bir əsası yoxdur, başdan-ayağa qərəzlidir. AŞ PA-da Ermənistana qarşı fərqli münasibət var. Ermənistanda keçmiş hakim rejimlə bağlı daim müsbət fikir ifadə edirdilər. Halbuki həmin rejim öz vətəndaşlarını küçədən güllələbaran etmişdi. Belə bir korupsioner, qəddar rejimli Ermənistanla bağlı məruzələrdə AŞ PA-da həmişə müsbət fikir ifadə olunur. Amma nə oldu? Ermənilər özləri həmin rejimi tarixin zibilliyinə atdı. Əlbəttə, AŞ PA içində sağlam qüvvələr var, amma bəzi şəxslər qərəzli çıxış edirlər. Onlar Azərbaycanı AŞ PA-dan uzaqlaşdırmaq istəyirlər. Bu sanksiya da buna xidmət edir. Bu hadisənin baş verməsi heç də təsadüfi deyil. Burada erməni əli olmaqla yanaşı, Azərbaycanı Avropa istiqamətindən yayındırmaq istəyən qüvvələrin əli var. Onlar Azərbaycanı Avropadan uzaqlaşdırıb zəif duruma salmaq istəyirlər".

**Məsələ ilə bağlı Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü Asim Mollazadə modern.az-a açıqlama verib.**

**Nümyəndə heyətinin üzvü bildirib ki, bu qərarı ədalətsiz və Azərbaycana qarşı qərəzli mövqe kimi qiymətləndirir:** "Əslində məsələni araşdırsaq görərik ki, korrupsiya faktı başqa ölkə tərəfdən, başqa məsələlərlə bağlı olub. Mən bunu Azərbaycana qarşı aparılan informasiya müharibəsinin tərkib hissəsi hesab edirəm. Səməd Seyidovla bağlı qərara gəldikdə isə bu, onun 2 il müddətində məruzəçi və müşahidə missiyalarını məhdudlaşdıran qərardır. Bu da ədalətsiz qərardır".

**Deputat bildirib ki, AŞ PA-nın qərarının nümayəndə heyətinin rəhbərliyinə heç bir aidiyyəti yoxdur:** "Yəni Səməd Seyidov yenə də Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri vəzifəsini icra edəcək".

**Müxalifət düşərgəsindən isə hadisəyə fərqli münasibət ifadə olunub. VİP sədri Əli Əliyev hadisəyə münasibət bildirib:** "Səməd Seyidovun sanksiyaya məruz qoyulması, nəhayət ki, beynəlxalq ictimaiyyətin iqtidarın siyasi davranışına verdiyi rəsmi qiymətdir. Beləliklə, rəsmən sübuta yetirildi ki, Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri korrupsionerdir, onun Avropa məkanına yaya biləcəyi ziyanlı vərdişindən qorunmağın yolu izolyasiya, karantindir. Xub. Bunu bildik, zatən də bilirdik. Səməd Seyidov bu halda fərd deyil. Deməli, onun təmsil etdiyi nümayəndə heyətinə vurulan damğadır bu qərar. Nümayəndə heyəti də bütövlükdə Azərbaycan Respublikası Parlamentini təmsil etdiyindən, korrupsiyaya hakimiyyət qollarından biri bulaşmış kimi görünür".

**Müstəqil siyasi ekspert Şahin Cəfərli isə bildirib ki, Səməd Seyidova qarşı tətbiq olunan sanksiyalardan çox, faktın özü önəmlidir:** "Kimsə sanksiyaları sərt, kimsə əhəmiyyətsiz və qeyri-ciddi hesab edə bilər. Amma fakt budur ki, Azərbaycan nümayəndə heyətinin rəhbərinə beynəlxalq təşkilat tərəfindən məlum ittihamlarla sanksiya tətbiq olunub. Bu, ölkə üçün ayıblı və utandırıcı haldır.

Bu faktın beynəlxalq səviyyədə təsirlərini biz bəlkə də Bakıdan baxmaqla görməyəcəyik. Amma Azərbaycan təmsilçilərinin beynəlxalq təşkilatlarda dili qısa olacaq. Məsələn, ermənilərin bizim nümayəndələrin çıxışlarına hansı reaksiyaları verəcəklərini yəqin ki, təxmin edirsiniz...

İndiki Milli Məclis buraxılmalıdır. Seçki islahatı həyata keçirilərək heç olmasa, qismən demokratik seçki yolu ilə səviyyəli, xalqdan mandat almış parlament formalaşdırılmalıdır. Bunun edilməməsi, yaxud köhnə, ənənəvi üsullarla yeni seçki tamaşasının səhnələşdirilməsi ölkə üçün ağır nəticələrə səbəb ola bilər".

BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı isə bildirib ki, yəhudi lobbisi ona görə güclüdür ki, çoxlu pul xərcləyir. Dövlət maraqları üçün pul xərcləmək ayıb deyil. Bunu edən tərəfə sanksiya tətbiq etmək isə qərəzdir.

❑ **Etibar SEYİDAĞA,**

# Heydər Əsədovun villaları-"Milyonerlər məhəlləsi"ndən "Tarqovı"ya qədər...

## Sabiq nazirin KTN-dəki fəaliyyətini araşdıran olacaqmı?



Heydər Əsədov

**Sabiq nəqliyyat nazirinin qudası, keçmiş kənd təsərrüfatı naziri Heydər Əsədovun Bakıda milyon manatlarla qiyməti olan 2 villası üzə çıxıb. Unikal.org-un məlumatına görə, paytaxtın Binəqədi rayonu "Vorovski" qəsəbəsində olan villalardan biri 5 mərtəbəlidir, tikintisi 6 milyon manata başa gəlib. Həmin villa 20 sot torpaq sahəsinin içərisində tikilib. Digər 3 mərtəbəli villa isə 2 milyon manata tikilib. Azərbaycanda nazirlərin, komitə sədrlərinin və digər yüksək vəzifəlilərin aylıq maaşları ilə həyat tərzləri arasındakı fərqi hər kəs bilir.**

Özəlliklə neft milyonlarının ölkəyə axdığı ötən illər ərzində Azərbaycanın nazirləri ərəb şeyxlərinin həyat tərzini yaşamağa başlayıb. Belə şəxslərdən biri də eks kənd təsərrüfatı naziri Heydər Əsədov olub. Bundan əvvəl Hesablama Palatasının sədri olmuş Heydər Əsədov digər komanda üzvlərindən fərqli olaraq, öz sahəsinin peşəkarı kimi tanınırdı.

Ziya Məmmədovla quda olandan sonra nazir təyinatı alan Heydər Əsədovun da adı korrupsiya qalmaqallarında hallanmağa başladı. Heydər Əsədovun Bakının "Milyonerlər məhəlləsi" adlanan məkanında da, Bakının Səbayel rayonundakı məşhur "Tarqovı" küçəsində də böyük evləri var. Əlbəttə ki, həmin evlər, mənzillər Heydər Əsədov nazir postu tutarkən alınıb. Azərbaycanda kənd təsərrüfatının real durumu ilə dövlət büdcəsindən bu sahəyə ayrılan milyardlarla manatın arasında böyük bir qeyri-bərabərlik, uyğunsuzluq var. Dövlət büdcəsindən Heydər Əsədovun rəhbərlik etdiyi nazirliyin nəzdindəki təkcə "Aqroliziq"ə son bir neçə ildə hər il 400 milyon manat ayrılıb. Bu, Heydər Əsədova tabe olan bir quruma hər il ayrılan məbləğdir və bu pullar onun əlindən keçib, onun dərkenarına əsasən xərclənib. Belə bir halda Heydər Əsədovun Bakının dörd bir tərəfindəki prestijli məhəllələrdə 5-6 milyon dəyərindəki villalarına xərclənən məbləğlərin mənbəyini axtarmaq üçün müstəntiq olmaq lazım deyil ki?

Yetər ki, Baş Prokuror yanında Korrupsiya İdarəsində stajor olan bir hüquqşünasa müvafiq araşdırma aparması tövsiyə olunsun. Qalan məsələlər texniki xarakter daşıyacaq. Məsələn, həmin hüquqşünas mətbuatda yayılan villaların fotolarını qabağına qoyub kənd təsərrüfatının ayrı-ayrı istiqamətlərindəki durumu əks edən fotolarla müqayisə etsə və yaranan suallara cavab axtarmağa başlasa, düz Heydər Əsədovun özünə uzanan ittihamlar avtomatik formalaşacaq. Üstəlik, bu ən kəsə və sadə yoldur...

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Türkiyə seçkiləri - kim nə qədər şanslıdır...

## Akşenerin şansları yüksək qiymətləndirilir, amma şərtlər iqtidar partiyasının xeyrinə dəyişir





**Türkiyədə keçiriləcək növbədənkənar prezident seçkisinin əsas namizədlərindən biri ötən il qurulmuş İYİ Partiyanın lideri Meral Akşenerdir. Türkiyədə daha əvvəl daxili işlər naziri, parlamentin vitse-spikeri postunu tutumuş M.Akşener iki il əvvəl MHP-dən ayrılıb və İYİ Partiya adlı yeni siyasi təşkilat yaradıb.**

Bu baxımdan hazırda növbədənkənar seçkilərdə həm yeni sima olaraq, həm də yeni təşkilat olaraq fərqli ad Meral Akşenerdir. Çünki digər namizədlər və təşkilatlar uzun illərdir siyasətdə iştirak edən və necə deyərlər, cəmiyyət üçün aşağı-yuxarı ölçüləri bəlli olanlardır. Bu mənada indi nəzərlər M.Akşenerin üzərindədir.

Məsələ ondadır ki, digər namizədlərin səsləri aşağı-yuxarı bəllidir. Məsələn, Məhərrəm İncənin namizədliyini irəli sürmüş CHP son 10 ildə demək olar ki, dəyişməyən 25 faiz həndəvərində elektoratı olan bir partiyadır. Hazırda həbsdə olan Səlahəddin Dəmirtaşın namizədliyini irəli sürmüş HDP isə son 2 seçkidə 10-11 faizlik nəticə ilə yadda qalıb. Səadət və Vətən partiyalarının isə səsləri stabil olaraq 2 faiz civarında olub. İYİ Partiya isə yenidir və sosial sorğu təşkilatları Meral Akşenerin partiyası ilə bağlı fərqli proqnozlar verirlər. Bir mənada seçkinin taleyini dəyişə biləcək namizəd M.Akşenerdir.

Məsələn, ORC araşdırma şirkətinin bu ilin fevralında hazırladığı sorğunun nəticələrinə əsasən sorğuda iştirak edənlərin 48.2 faizi AKP, 24.6 faizi CHP, 11.2 faizi MHP, 7.9 faizi HDP, 5,7 faizi isə İYİ Partiyanı seçib.

Yenə ORC araşdırma şirkətinin mart ayında keçirdiyi sorğunun nəticələrinə əsasən müxalifət partiyalarının seçki ittifaqı olarsa İYİ Partiya 67.8 faiz səs qazana bilər.

SONAR araşdırma şirkəti isə keçirdiyi sosioloji sorğunun nəticələrinə əsasən parlament və prezident seçkiləri birgə olacağı təqdirdə səslərin 34.43 faizini AKP, 6.27 faizini MHP, 9,53 faizini HDP, 12,57 faizini isə İYİ Partiya ala bilər. Bu anket sorğusu növbədənkənar seçki qərarından öncə aparılıb. Yenə də SONAR-ın araşdırmasına görə, prezident seçkilərində Ərdoğan 38,9, CHP təmsilçisi (Məhərrəm İncə) 18,9, faiz, Meral Akşener isə 15,3 faiz səs ala bilər.

Ən son olaraq Piar Araşdırma Mərkəzinin apreldə, yəni növbədənkənar seçki kampaniyası başladıqdan sonra keçirdiyi sosioloji sorğunun nəticələri əvvəlki dövrlə müqayisədə fərqli olub. Belə ki, iddialara görə, seçkilər ikinci tura qalarsa, bu zaman Meral Akşenerin qalib olma şansı var. Piar Mərkəzinin 25 vilayətdə 2460 respondent arasında keçirdiyi sorğunun nəticələrinə əsasən AKP və MHP-nin birgə qurduğu "Cumhur İttifaqı" koalisiyası 44,24 faiz səs alıb. Maraqlıdır ki, eyni şirkətin bir müddət əvvəl keçirdiyi "Cumhur İttifaqı"nın səsi 47,80 faiz olub. Bu isə o deməkdir ki, seçkilərin elanından sonra hakim koalisiyada 2,5 faizlik azalma var.

Son anketə əsasən növbədənkənar seçkilər olarsa, "Cumhur İttifaqı" 32.3, CHP 17.1 faiz, HDP 8.8 faiz, İYİ Partiya 12.8 faiz, Səadət Partiyası 1.8 faiz, tərəddüd edənlər isə 11 faiz təşkil edib. 16 faiz isə seçkilərə qatılmayacağını bəyan edib. Şirkətin təxminlərinə görə, tərəddüd edənlərin böyük hissəsi sonradan iqtidar koalisiyasına səs verəcək və bununla da "Cumhur İttifaqı"nın səsi 44.24 faiz, CHP-nin səsi 23.42 faiz, HDP 12.05 faiz, İYİ Partiya 17.53 faiz, Səadət Partiyasının səsi isə 2.49 faiz olub.

Bloklara görə səslərin bölüşdürülməsi fərqli olmayıb. AKP-MHP 44 faiz, CHP-HDP ittifaqı 32.20, İYİ Partiiya-Səadət Partiyası ittifaqı isə 23.29 faiz dəstək alıb.

Yenə də eyni mərkəzin araşdırmasına görə, seçkilərə CHP-İYİ Partiya-Səadət Partiyası-Demokrat Partiyası birgə ittifaqda gedərsə, 40.20 faiz səs ala bilər. Qeyd edək ki, hazırda müxalifət partiyaları məhz bu formatda seçkilərə gedir.

Qeyd edək ki, bütün bunlar hələlik sosioloji sorğuların əldə etdiyi nəticələrdir. Göründüyü kimi, hökumətə və müxalifətə yaxın seçki araşdırmaları mərkəzlərinin nəticələri arasında da fərq var. Digər tərəfdən, Türkiyə kimi dinamik siyasi prosesləri olan və qaynar bir bölgədə yerləşən ölkədə seçki şəraitinin və seçicilərin baxışlarında dəyişiklik olması ehtimalı yüksəkdir. Məsələn, son olaraq Fələstində baş verən faciəvi hadisələr və Türkiyə hakimiyyətinin İsraildəki səfirini geri çağırması, eləcə də prezident Ərdoğanın İsrailə qarşı sərt açıqlamaları şübhəsiz ki, iqtidarın səslərinə təsir edəcək. Təbii ki, müxaliflər buna qarşı ciddi seçki gedişləri edə bilməsələr ciddi səs itkiləri ilə üzləşə bilərlər.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Jirinovski Böyük Azərbaycan xəritəsi yaydı

## Fərəc Quliyev: "Jirinovski əslində heç də deyildiyi kimi qeyri-ciddi siyasətçi deyil, o, kifayət qədər məlumatlı, Şərqi yaxşı bilən siyasətçidir"



Vladimir Jirinovski

**Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski İranın ABŞ və İsrail arasında necə bölünəcəyi ilə bağlı məlumat yayıb. Axar.az xəbər verir ki, Jirinovski bununla bağlı öz twitter səhifəsində xəritə yerləşdirib. O, bu xəritəni 20 il öncə hazırladığını deyib. Qeyd edək ki, xəritədə İranın bir neçə yerə bölünməsi əks olunub. Jirinovskinin xəritəsinə əsasən, bu dəyişikliklərdən sonra Bütöv Azərbaycan, ayrıca kürd dövləti, fars dövləti, Bəllucistan və Böyük Türkmənistan yaranır.**

Jirinovski həmçinin Türkiyənin bəzi ərazilərinin Ermənistana veriləcəyini xəritəsində əks etdirib.

Onu qeyd edək ki, Jirinovskinin yerləşdirdiyi xəritədə Güney Azərbaycanın bir sıra əraziləri kürdlərə, bir sıra əraziləri isə ermənilərə verilib. Xəritədə müstəqil Azərbaycana birləşdirilən ərazilər əsasən Güney Azərbaycanın Xəzərə yaxın bölgələridir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** "Yeni Müsavat"a şərhində bildirdi ki, İranın da daxil olduğu bu bölgə dünyanın qəlbi adlanan zonadır. Dünyanın siyasi xəritələrinin dəyişməsi bu bölgə ilə bağlı olan qərarlara bağlı olur. Azərbaycan da həmin zonada ən fəal nöqtədə yerləşir. Bunun üstün cəhətləri olduğu kimi, təbii ki, mənfi tərəfləri də var: "Böyük güclər bu ərazilərə nəzarət eləmək, buraları təsiri altında saxlamaq haqqında düşünürlər. Ona görə də bizim də vəziyyətimiz bəzi məqamlarda o qədər ürəkaçan olmur. Əlbəttə, İranla bağlı gedən proseslər də böyük güclərin planlarını həyata keçirmək istəyindən xəbər verir. Lakin biz həmişə bildirmişik ki, günün birində millətin iradəsi qalib gələcək. Böyük güclər yeni siyasi şəkillənmələr aparanda təbii ki, yerli əhalinin münasibətini, istəklərini mütləq nəzərdən keçirirlər. O cümlədən Güney Azərbaycan türklərinin uzun müddətdir apardıqları mübarizə və dəfələrlə nail olduqları müstəqilliyə nail ola bilmələri kimi məqamlar təbii ki, dünya gücləri tərəfindən nəzərə alına bilər. Vladimir Jirinovski də bunu bilir. Jirinovski əslində heç də deyildiyi kimi qeyri-ciddi siyasətçi də deyil. O, kifayət qədər məlumatlı, Şərqi yaxşı bilən siyasətçidir. Bəzi məqamlarda fərqli davranış nümayiş elətdirir, amma hər halda, Rusiyanın danışan dili kimi çıxış edir".

**Deputat qeyd etdi ki, V.Jirinovskinin yaydığı xəritə əslində yeni deyil:** "Uzun illər əvvəl ABŞ-da Pentaqonla bağlı olan "Şahinlər qrupu" belə bir xəritənin əsasında təkliflərə çıxış eləmişdilər. İndi ABŞ-da iş başında olan rejim məhz həmin "Şahinlər qrupu"na bağlıdır və İsraillə bir yerdə İranın yeni şəkilləndirilməsi ilə bağlı qəti bir davranış nümayiş etdirirlər. Qarşıda bu istiqamətdə ciddi addımlar atacaqlar. Yeni Jirinovskinin nümayiş etdirdiyi xəritə böyük bir planın şəkillendirilmiş forması sayıla bilər. Günün birində Azərbaycan birləşəcək və Bütöv Azərbaycan olacaq. Bu, dünyanın özü üçün də əhəmiyyətli bir məsələdir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Lukaşenko Paşinyanı başından elədi

## Azərbaycana silah satışı davam edəcək



**Mayın 16-da Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Dövlət Hərbi-Sənaye Komitəsinin sədri general-mayor Oleq Dviqalyovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, görüşdə iki ölkə arasında hərbi və hərbi-texniki sahədə birgə fəaliyyətin nəticələrindən məmnunluq ifadə edilərək bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Nümayəndə heyətləri Belarus hərbi-sənaye kompleksi müəssisələrinin istehsal etdiyi bütün qoşun növləri üçün nəzərdə tutulmuş müxtəlif təyinatlı hərbi məhsulların Azərbaycan ordusunun silahlanmasına qəbul edilməsini müsbət qiymətləndiriblər. Tərəflər habelə hərbi-texniki əməkdaşlıq məsələlərinin geniş spektrini müzakirə edərək Azərbaycan ordusunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş yeni böyük layihələrin həyata keçirilməsi istiqamətlərini müəyyənləşdiriblər.

Diqqətçəkicidir ki, Azərbaycan Müdafiə Nazirliyində görüş Belarus prezidenti Aleksandr Lukaşenko ilə Ermənistanın yeni baş naziri Nikol Paşinyan arasında mayın 14-də Soçidə Avrasiya İqtisadi Birliyinin toplantısı çərçivəsində reallaşan ilk görüşdən cəmi bir neçə gün sonra baş tutub. Həmin görüş zamanı Paşinyan Lukaşenkoya Belarusun Azərbaycana silah satmasından şikayətlənmiş, eyni zamanda bununla bağlı Ermənistanı narahat edən bütün sualları səsləmişdi. Paşinyanın sözlərinə görə, Lukaşenko suallara "normal" cavablar verib.

Göründüyü kimi, Belarus erməni baş nazirini başından edib və onun xahiş-minnətinə rəğmən, Azərbaycanla hərbi-texniki əməkdaşlığı zəifləmək və ya dayandırmaq niyyətində deyil. Əksinə, Azərbaycana əsas silah satıcılarından biri olaraq qalmaq niyyətindədir.

Musavat.com xatırladır ki, Rusiyanın "Kommersant" nəşri az öncə yazmışdı ki, 2018-ci ildə Belarus kontrakt çərçivəsində ilk partiya - 10 ədəd "Polonez" mühasir reaktiv yaylım atəş sistemi (RSZO) tədarük edəcək və ehtimali sifarişçi kimi Azərbaycanın adını çəkmişdi. "Azərbaycanın müdafiə naziri artıq Belarusda olub və sistemlərlə tanışlıq həyata keçirib. Mənbələrimiz deyir ki, belə bir kontrakt Ermənistanda neqativ qarşılanacaq", - deyə nəşr qeyd eləmişdi.

Əlavə edək ki, "Polonez" Rusiyanın Ermənistanda yerləşdirdiyi "İsgəndər" uzaq mənzilli raket sistemlərinin analoqu sayılır.

**❑ Musavat.com**

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018

# Eks nazir və komitə sədrlərindən kimlər yeni təyinat ala bilər...

## Ramiz Həsənov nazir müavini postuna təyin edildi; vurulan sabiqlər üçün isə bu variant real deyil

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin keçmiş sədri Ramiz Həsənov xarici işlər nazirinin müavini vəzifəsinə təyin edilib.**

Xatırladaq ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 20 aprel 2018-ci ildə Azərbaycan Prezidentinin fərmanı ilə ləğv edilib.

Məlumat üçün bildirək ki, bu təyinatadək Azərbaycan Xarici İşlər Nazirliyi başçısının 5 müavini var idi: Araz Əzimov, Xələf Xələfov, Mahmud Məmmədquliyev, Hafiz Paşayev və Nadir Hüseynov.

Qeyd edək ki, R.Həsənov komitə sədri təyinatından əvvəl Azərbaycanın Gürcüstandakı səfirliyinə başçılıq edib. Yəni onun diplomatiya, xarici siyasət sahəsində təcrübəsi var.

Maraqlıdır ki, bundan əvvəl də vəzifəsindən azad edilən bir sıra məmurlar müxtəlif strukturlarda müavin, yaxud hansısa ölkələrdə səfir postuna təyin olunublar. Məsələn, keçmiş kənd təsərrüfatı naziri İsmət Abbasov nazir vəzifəsindən azad olunaraq baş nazirin müavini təyin olunmuşdu. Yaxud keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev Özbəkistana səfir göndərilmişdi və sair.

Budəfəki prezident seçkilərindən sonra 3 nazir və daha 3 nazirə bərabər tutulan məmur vəzifəsini itirdi. Nazirlər arasında vəzifəsindən könüllü uzaqlaşdığına dair məlumat yayılanı yeganə olaraq sabiq ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov oldu. O, yerinə təyin olunan nazirin kollektivə təqdimatı mərasiminə qatılmaqla vəzifədən özü getdiyini, üzvü olduğu hakimiyyət komandasından vurulmaqla uzaqlaşdırılmadığını isbatlamış oldu. Bu baxımdan, H.Bağırovun öz istəyinə uyğun vəzifə ilə təmin olunması heç də təəccüb doğurmaz.

Seçkilərdən sonra vəzifəsindən məhrum olanların bəziləri isə ciddi tənqid atəşinə tuş gəldilər. Bu baxımdan, ən kəskin fikirlər Diasporla İş üzrə Dövlət Komitəsinin, bir də Dövlət Miqrasiya Xidmətinin rəhbərlərinin ünvanına səsləndirildi. Belə ki, hər iki şəxsin xələfini kollektivə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təqdim etdi. Və təqdimat mərasimlərində hər iki sahədə ciddi problemlərin olduğunu, korrupsiya, vəsaitlərin təyinatından yayındırılması hallarına yol verildiyini bildirdi. Bu amil göstərir ki, Nazim İbrahimov və Firudin Nəbiyevin yenidən bu hökumətdə hansısa vəzifə almaq şansları demək olar ki, yoxdur.

Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov bu vəzifədən alınsa da, baş nazirin müavini postunu saxlaya bilib. Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbov da yenidən əvvəlki postuna - baş nazirin müavini vəzifəsinə qaytarılıb.

Seçkilərdən sonra vəzifəsini itirən sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun da yenidən hansısa posta gətirilməsi bir xeyli çətin görünür. Belə ki, onun özü üçün də çox gözlənilməz olduğu deyilən gedişindən sonra məlum olub ki, rəhbərlik etdiyi nazirlikdə ciddi yoxlamalar başlanıb. Xüsusilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda Hesablama Palatası tərəfindən aparılan yoxlamalar zamanı ciddi qanun pozuntuları aşkarlanıb. Hazırda bu yoxlamalar davam etdirilir.

Xatırladaq ki, bir müddət öncə özəl mənbələrdən "Yeni Müsavat"a daxil olan məlumatda Sosial Müdafiə Fondunda 2-2,5 milyard manata yaxın vəsait itkisinin aşkarlandığı bildirilmişdi. Hesablama Palatasının açıqladığı pozuntular göstərir ki, bu məlumat reallıqdır. Bütün bunlar isə deməyə əsas verir ki, S.Müslümovun hətta təskinlik üçün olsa belə, yenidən hansısa vəzifəyə gətirilməsi çətin məsələdir.

Yenidən vəzifə təyinatı qeyri-mümkün görünən daha bir sabiq məmur Kənd Təsərrüfatı Nazirliyinin başından alınan Heydər Əsədovdur. Son 5 ildə ən önəmli qurumların birinə rəhbərlik edən cənab Əsədovun vəzifədən alınacağı əvvəlcədən proqnozlaşdırılırdı. Nazirlik sistemində korrupsiya və rüşvətxorluq halları ilə bağlı məlumatların yayılması, kənd təsərrüfatı istehsalçılarının qurumdan narazılığının getdikcə artması kimi amillər H.Əsədovun ölkə iqtisadiyyatının əsas prioritetlərindən biri olan aqrar sektora layiqincə rəhbərlik edə bilmədiyini göstərirdi.

Qeyd etmək yerinə düşər ki, Azərbaycanda bəzən cəmiyyət üçün xeyli gözlənilməz olan kadr təyinatları baş verir: vəzifəsindən alınan birisi başqa bir yüksək posta gətirilir. Bu baxımdan, hətta indi işdən çıxarılan məmurların bir qədər sonra hansısa vəzifəyə təyinat alması mümkündür. Bir şərtlə ki, həmin şəxs vəzifəsindən vurulmadan getmiş olsun...

❑ **TURQUT, "Yeni Müsavat"**


Heydər Əsədov


Səlim Müslümov


Firudin Nəbiyev

# Dələduzluqda suçlanan polkovnik brakonyerliklə də məşğul imiş...

## Ələt portunun sabiq rəisi balıq biznesi adı ilə tanışının 185 min dollarını mənimsəyib



**Sabiq polkovnikin məhkəməsi başlayıb. Dələduzluqda təqsirləndirilən Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinin Ələt portunun sabiq rəisi, polis pokovniki Fərhad Məmmədxanov hakim qarşısına çıxarılıb.**

Onun cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.

Hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.

Prokuror F.Məmmədxanovun Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə təqsirli bilinib 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Zərərçəkmişin vəkili prokurorun çıxışı ilə razı olduqlarını bildirib: "Zərərdən cəmi 30 min ödənilib. 20 min ödəniş ediləcəyi təqdirdə şikayətimizi geri götürə bilərik".

Təqsirləndirilən şəxsin vəkili müdafiə çıxışı üçün vaxt istəyib. Məhkəmə prosesi mayın 18-də davam etdiriləcək.

İttihama görə, Fərhad Məmmədxanov tanışı Eldar Hənifəyevi iş görmək adı ilə aldadıb. Ona balıq satışı işi görməyi və yaxşı qazanc əldə etməyi təklif edib.

Bu məqsədlə Eldar Hənifəyevdən 185 min dollar alıb. Hər ay da qazanc kimi Eldar Hənifəyevə 6 ay 5 min dollar verərək onun etibarını qazanıb.

E.Hənifəyev daha sonra pulunu ala bilməyib və şikayətçi olub.

Məhkəmədə ittihama münasibət bildirən Fərhad Məmmədxanov ittihamla özünü təqsirli bilmədiyini söyləyib.

Qeyd edək ki, F.Məmmədxanov Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən tutulub.

Onun barəsində həbs-qətimkan tədbiri seçilib və 1 saylı İstintaq Təcridxanasına (Kürdəxanı) göndərilib. Fərhad Məmmədxanov iş qurmaq adı ilə vətəndaşa qarşı dələduzluqda ittiham edilir.

Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

❑ **İ.MURADOV, Musavat.com**

# Böyük savaşın astanasında



Xalid KAZIMLI

**Ən azı üç ildir ki, yer üzündə yeni dünya müharibəsinin getdiyindən yazırıq. Gerçəkdən də elədir, dünyada bu sayaq geniş arealda aparılan hərbi əməliyyatlar, bu miqyasda diplomatik savaşlar, iqtisadi qarşıdurmalar, çoxşaxəli sanksiyalar yalnız II dünya müharibəsi dövründə olub.**

Təsəvvür edin, bir ölkədə bir hadisə baş verir, 10-dan çox ölkə öz daxili işi imiş ki, ona müdaxilə edir. Həm də bu müdaxilə təkcə nota, ultimatum və bəyanatlarla məhdudlaşmır. Olay yerinə əsgər, ağır silahlar, döyüş sursatı, maddi yardımlar, hər şey göndərilir.

Təkcə Suriyada gedən hərbi əməliyyatlara qatılan ölkələrin sırasına baxaq: ABŞ, Rusiya, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, İsrail... Onlardan başqa bu ölkədə döyüşən tərəflərə müxtəlif səpkili yardım edən dövlətlər də var.

Eyni zamanda Suriyada döyüşən tərəflərdən biri olan İŞİD zaman-zaman Türkiyə, Fransa, ABŞ, Almaniya, Belçika, İngiltərə kimi ölkələrə terror hücumları təşkil edir.

Bir Suriya deyil, bənzər proseslər İraqda, Əfqanıstanda da gedir. Yəmən və Liviya da müharibə poliqonlarından biridir.

Türkiyə öz ərazisindəki kiçik müharibəni sıxışdıraraq xaricə transfer edə bilib, amma təhlükə hələ də bu ölkənin sərhədlərinin bir addımlığındadır.

İran potensial savaş meydanıdır, ABŞ oraya da çomaq uzatmaq niyyətindədir. Livan zatən sülhün ən kövrək olduğu dövlətdir. Misirin bir gözü döyüşən tərəflərdədir, hər an müdaxilə edə bilər.

Bir sözlə, ilk dövlətlərin əmələ gəldiyi, ilk şəhərlərin tikildiyi gündən bəri keçən min illər ərzində daima dava-dalaş, qırğın-qiyamət, zorakılıq, işğal-ilhaq yuvası olmuş, yüz dəfələrlə əldən-ələ keçmiş Yaxın Şərq regionunda hələ də qan su yerinə axır.

Bu, dünyanın yenidən bölüşdürülməsi savaşı deyil, Avropa bölüşdürülüb, qurtarıb, yeni, kiçik dövlətlər əmələ gəlib və hamı bununla barışıb. Daha balaca knyazlıqları, cırtdan dövlətləri öz dövlətinin tərkibinə qatmaq, zəif dövlətlərə qarşı ərazi iddiası irəli sürən yoxdur.

Bu, Yaxın Şərqin yenidən bölüşdürülməsi prosesidir. Artıq superdövlətlərin heç biri öz əsl niyyətini gizlətmir, hamısı hansı dövlətin parçalanmasını, yerində hansı dövlətlərin yaranmasını istədiklərini açıq şəkildə büruzə verirlər.

Parçalanması planlaşdırılan dövlətlərin başında Suriyadır. İraq da o sıradadır. Türkiyə və İran isə dağıdılması planlaşdırılan, amma parçalanmanın aktiv fazasının başlanmadığı dövlətlərdir.

Əslində, bir neçə il öncə Türkiyəyə qarşı separatçı hərbi əməliyyatlar aktiv fazaya keçirilmiş, hətta ölkənin cənub-şərqində bir neçə əyalət və ayrı-ayrı rayonlar, demək olar ki, Türkiyə dövlətinin nəzarətindən çıxarılmışdı və burada elan edilməmiş qondarma bir dövlət qurulmuşdu.

Ancaq Türkiyə rəhbərliyi ocağın böyüyüb tonqala və meşə yanğınına çevrilməsinin qarşısını aldı. "Kürdüstan" dövləti qurmaq, daha sonra onu İraqdakı "Kürdüstan"la birləşdirmək istəyən PKK-çıların xarici dəstəyi kifayət qədər çox idi.

PKK-çılar Türkiyə ordusuna ciddi müqavimət göstərəsiydilər, daha dəqiqi, göstərə bilsəydilər və onu atəşkəsə məcbur etsəydilər, "nə müharibə, nə sülh" rejimi də bir müddət çəkəcəkdi, daha sonra Avropa dövlətləri Türkiyənin yeni rəhbərliyini "Kürdüstan"ın dövlət müstəqilliyini tanımağa vadar edəcək, özləri də yeni dövləti tanıyacaqdılar.

Bu plan ertələndi, amma qaldırılıb rəfə qoyuldumu? Elə görünmür. Bölgəyə yeni-yeni silah növləri gətirilir, yeni-yeni ordular formalaşdırılır, yeni-yeni müttəfiqlik büsatları qurulur.

Kim kimi haradan, necə, nə vaxt vuracaq - bəlli deyil.

Bəlli olan ortalığın son dərəcə gərgin olmasıdır. Köhnə müttəfiqliklər sarsılır, yeniləri əmələ gəlir. Bir zamanlar İsrail və ABŞ-la, eləcə də Almaniya ilə ciddi müttəfiqlik münasibətində olan, İran və Rusiya ilə bir çox parametrlər üzrə rəqabətdə olan Türkiyə artıq ikincilərlə yaxınlaşıb, birincilərlə isə qarşı duran səngərlərə girib.

Bizə gəlincə, biz - üç Qafqaz dövləti (Azərbaycan, Gürcüstan və Ermənistan) regionun 3 böyük dövlətinin (Rusiya, Türkiyə və İran) arasındayıq, o dövlətlərdən biri və ya ikisi böyük müharibəyə qatılsalar, Qafqaz da ayaq altda qala bilər. Ən qorxulusu da elə budur. Onsuz da öz müharibəmiz özümüzə bəsdir.



# Müəllimlərin kütləvi intiharı

Zamin HACI
zaminhaci@gmail.com

"Elm öyrən, imtəhan ver,
Öz fəzlini nişan ver;
Qədrin bil elmü fəzlin,
Elmin yolunda can ver.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!"

(Sabir)

****

**Son günlər müəllimlərin, məktəb direktorlarının, valideynlərin və ən pisi isə Təhsil Nazirliyi, Bakı Şəhər Təhsil İdarəsi, rayon təhsil şöbələri əməkdaşlarının intihar xəbərləri gəlməkdədir. Bu, bir-iki, təsadüfi hal olsa bəlkə diqqətimizi cəlb etməzdi. Ancaq kütləvi hal almaqdadır. Ən çox da müəllimlər və nazirlik işçiləri canlarına qıyırlar. Mayın 13-də, o nəhs gündə 4 müəllim və 6 nazirlik işçisi intihar eləmişdir. Bunlardan 3 nəfəri müvafiq olaraq qəsdən xarab edilərək botulizm virusları ilə zənginləşdirilmiş sirkə turşusu içmiş, 2 nəfər İpək yolunun bir hissəsi olan körpüdən atılmış, 4 nəfər dənizdə batmış, 1 nəfər isə qarnına qələm soxaraq yapon üslubunda xarakiri etmişdir. Təhsil ictimaiyyətimizə dərin hüznlə başsağlığı veririk.**

Valideynlər də bir yerdə dayanmırlar. Ancaq valideynlərin özünəqəsd üsulları müəyyən dərəcədə elmi üslubdan uzaqdır. Əlbəttə, savadsız adamlardır, nə deyəsən... Misal üçün, 16 mayda intihar edən valideynlərin 40 faizi özünü yandırmış, 30 faizi asmış, 60 faizi isə qatar altına atılmışdır. Elə bu faizləri toplayanda 130 alınması da savadsızlığın bir nümunəsidir.

Təhsil Nazirliyi və rayon təhsil şöbələrinin əməkdaşları isə həddən artıq Bolonya üslubunda, kurrikuluma əsasən, metodiki, pedaqoqiki, melodiki üsullarla ölməyə üstünlük verirlər. Örnək üçün, dünən nazirliyin repetitorların qeydiyyatı və 8 mart şöbəsinin əməkdaşı Telcahan Gülcamalova zəhərli maddəni yuxu dərmanına qataraq özünü yandırıb nazirliyin binasının damından marşrut avtobusunun qabağına atılaraq və havada ikən damarlarını doğrayaraq başına kulok keçirərək özünü boğmaq üsuluyla intihar etmiş, bununla da mümkün 10 intihar balından 9-unu yığaraq müsabiqənin qalibi olmuşdur! Rəhmətliyi səmimi qəlbdən təbrik edirik, ona gələcək həyat və yaradıcılığında uğurlar arzulayırıq.

Bəs bu kütləvi qırğının səbəbi nədir? Nə üçün respublikamızın bu təhsil ictimaiyyəti öz cavan canlarına, bəziləri isə pensiyaya çıxmağa az qalmış yaşlı canlarına qıyırlar? Axı ölkəmizin işıqlı gələcəyinə lap az qalmışdır, inşallah, 50 ildən sonra biz Qaradağın Sahil qəsəbəsindən o yanda dənizin qırağına sərbəst gedə biləcəyik, Lökbatandakı Musa bulağında zəfərlər qeyd edəcəyik, Kürdəmirin Şilyan kəndində qalanacaq Novruz tonqallarının çatırtısı isə artıq qulağımıza yetməkdədir! Sosioloji araşdırmalar, jurnalistlərimizin gərgin əməyi (bir neçə müxbiri xüsusi olaraq bu məqsədlə Pişik Günelin qarderobundan çıxarıb araşdırmaya cəlb etmişik) sayəsində kütləvi intiharların səbəbi tapılmışdır! Sən demə, balinalar plankton qıtlığı üzündən sahilə atılıb intihar edirlər... Üzr istəyirəm, bu ayrı araşdırmanın cümləsi idi, səhv düşdü. Təhsil sektorunda qırğına abituriyentlərin qəbul imtahanlarında az bal toplaması səbəb imiş! Sən demə uşaqların 50 faizinin "İki" almasına dözməyən nazirlik nümayəndələri, müəllimlər, valideynlər ölməyə üstünlük verirlər.

Doğrudan da, Allah kəssin belə yaşamağı... O boyda əziyyət çək, dərs öyrət, məktəb qayır, polisə ayrılandan artıq təhsilə pul qoy, xaricdəki villanın təmirindən, avropalı deputatın boğazından, nə bilim, Putinin gəmisinin borusundan kəsib uşaq hazırlaşdır, axırda da bu uşaqlar yaxşı qiymət ala bilməsin. Halbuki onların hər biri AMİ-ni qurtarıb sabah camaatın sağ ayağı yerinə qulağını kəsə bilərdi. Narxozu qurtarıb tamojnada milli namusumuza sataşan ərəbi soyardı. BDU-nu bitirib taksi sürərdi, APU-nu qurtarıb çoban işləyərdi, canım sənə desin, ASDFGHU-nun magistraturasını dibinə qədər oxuyub 3-ün kruqunda laqonda işlədərdi.

Sonda abituriyentlərdən xahiş edirəm bir daha düşünsünlər, müəllimlərin, valideynlərin canına qıymasınlar, növbəti qəbul imtahanlarında hamısı yaxşı bal toplasınlar. Təhsil millətin gələcəyidir!




# Trampın qəfil təbriki və "əcəl zəngi" - "işğalçı Qarabağı itirəcək..."

## Baş nazir dəyişikliyindən sonra Ermənistan uğrunda ABŞ-Rusiya rəqabəti daha amansız mərhələyə keçir; **Rusiya nəşri Qarabağla bağlı İrəvana pis müjdə verdi və Nikol Paşinyanı "ABŞ-ın əlaltısı" adlandırdı:** "Qərb ermənilərə böhran hazırlayır..."

**Mayın 14-də Soçidə Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın yeni baş naziri Nikol Paşinyan ilk dəfə bir araya gəldilər. Maraqlıdır ki, bundan cəmi bir gün sonra ABŞ prezidenti Donald Tramp N.Paşinyanı baş nazir seçilməsi münasibətilə təbrik edib.**

Ağ Ev başçısının təbrik məktubunda "ikitərəfli maraq kəsb edən müxtəlif sahələr, o sırada ticarət əlaqələri, demokratiya, regional təhlükəsizlik məsələlərdə birgə fəaliyyətin güclənəcəyinə ümid ifadə edilir, eyni zamanda korrupsiya ilə mübarizə və Dağlıq Qarabağ münaqişəsinin dinc həllinin bu səylərə kömək ola biləcəyini vurğulanır.

Erməni KİV-i isə Trampın məktubu ilə bağlı diqqəti ən əvvəl bu faktın unikallığına cəlb edib. "ABŞ prezidenti səviyyəsində Ermənistanın başçısı az qala, ilk dəfə təbrik edilir. Hər necə olmasa, ötən 2 onillikdə belə təbrik olmayıb. Maksimum Dövlət Departamenti səviyyəsində gəlib. Beləcə, Paşinyan bu günədək onun sələflərinə qismət olmayan bir şeyi - xalqın dəstəyini və dünyadakı yeganə fövqəldövlətin təbrikini alıb".

"Yeni Müsavat" xəbər verir ki, bu barədə Iragir.am nəşrindəki məqalədə deyilir.

Lakin sevinməyə əslində əsas yoxdur. Əksinə, indiyədək görünməmiş bu "nadir" təbrik "işğalçı Ermənistan üçün yeni və daha fəlakətli dönəmin - Ermənistan uğrunda ABŞ-Rusiya rəqabətinin açıq müstəviyə keçmək üzrə olmasının xəbərçisi də ola bilər. Bir növ "əcəl zəngi" yəni...

*****

Yada salaq ki, Paşinyanı baş nazir postunda ilk təbrik edən V.Putin olub - hərçənd, hətta Soçi görüşündən, yeni erməni baş nazirin vədləri və sədaqət andından sonra da Rusiyada Paşinyana dərin etibar yaranmayıb. Rusiya KİV-də hələ də davam edən şərhlərdən aydın olan qənaət belədir ki, onu Ermənistanın Saakaşvilisi olmaq istəyən gizli qərbçi kimi qəbul eləməkdə davam edirlər.

Bu xüsusda Trampın N.Paşinyana təbrikinin Soçi görüşündən dərhal sonraya təsadüf eləməsi təsadüfə az oxşayır. Bunu haradasa Amerikanın Rusiyaya "Paşinyanı heç də özününkü bilmə, o bizim uşaqdır" şəklində incə çatdırışı saymaq mümkündür. Hər necə olmasa, işğalçı ölkədəki məlum küçə hərəkatının əsas sponsorunun Amerika olduğuna artıq az adam şübhə edir.

Bunu Paşinyanın kadr təyinatlarından da görmək olar. O, artıq açar vəzifələrə *(baş nazirin müavini, xarici işlər, müdafiə, ədliyyə nazirləri və s.)* qərbyönlü kadrları gətirib. Hətta iqtisadi məsləhətlər almaq üçün ABŞ-dan mütəxəssis - Daron Acemoğlunu dəvət edib. Bütövlükdə Serj Sərkisyanın köhnə hökumətindəki qarabağlıları "amerikalılarla" əvəzləyib. "Amerikanlaşma" hələ bitməyib və Moskvada yəqin ki, bunun fərqindədirlər.

*****

**"Nikol Paşinyan baş nazir olandan sonra öz publik çıxışlarında rusofobiyanı nəzakətlə əvəzlədi, söz verdi ki, Rusiya ilə əməkdaşlığı gücləndirəcək. Ancaq Amerikanın əlaltısı bunu necə edəcək? Falçıya getməyə gərək yox - Ermənistan mütləq Qərb təsiri altına keçəcək və Rusiya ilə münasibətləri korlayacaq. Bəs Moskvanın dəstəyi olmadan bu balaca Qafqaz respublikasını nə gözləyir? Yaxşı heç nə".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə Rusiyada nəşr olunan "Ekspress qazeta" (təsisçisi "Komsomolskaya Pravda" nəşriyyat evidir) yazıb.**

**Məqalədə daha sonra deyilir:** "Amerikalılar Ermənistanda uğurlu şəkildə və çox sürətlə növbəti "maydan" həyata keçirdilər. Cəmiyyətdə süni şəkildə etiraz ovqatını gücləndirdilər, İrəvanda etiraz aksiyaları təşkil elədilər və yekunda baş nazir Serj Sərkisyanın istefasına nail oldular. Bəli, Paşinyan indi ritorikanı dəyişib və yalan danışmağa başlayıb. Guya Rusiya ilə normal əlaqələr qurmağa hazırlaşır. İnanmayın".

**Daha sonra müəllif Nikol Paşinyanın müxalifətdəki mövqeyinə və bəyanatlarına diqqət yönəldərək yazır:** "Axı bu, həmin Paşinyandır ki, dahi ma hökumətdən kremlyönlü kursu dəyişməyi tələb edir, parlamentdə Ermənistanın Avrasiya İqtisadi Birliyindən çıxması prosesini işə salmağa çağırırdı... Təəssüf ki, Ermənistanın yaradılmasında Rusiyanın nələr elədiyini, hansı fəallığı göstərdiyini indi az adam xatırlayır (bu yerdə müəllif XIX əsrdə İran və Türkiyə ermənilərinin kütləvi şəkildə türk torpaqları olan İrəvan quberniyasına və Qarabağa köçürülməsini yada salır - red.) Ermənistan indi zindan və çəkic arasında olan bir durumda - əbədi düşmənləri Türkiyə və Azərbaycanın arasındadır. Əgər Rusiya regiondan getsə, ola bilsin, Ermənistan Yer üzündən silinməsin, Qərb imkan verməz, amma Dağlıq Qarabağı o itirəcək".

**Məqalənin sonunda ermənilərə başqa bir xəbərdarlıq yer alıb:** "Cənubi Qafqazda müharibəni qızışdırmaq üçün Qərb ermənilərə siyasi böhran hazırlayıb. Axı ABŞ-ın versiyasına görə, Rusiya konfliktdə ermənilərə dəstək verəcək, azərbaycanlılar isə Türkiyədən kömək istəyəcək. Nəticə etibarilə "Türk axını" və Suriya məsələsində Ankara-Moskva əməkdaşlığını unutmaq lazım gələcək".

*****

Yəni nəşr əslində bununla ermənilərə mesaj vermək istəyir ki, Amerikanın vədlərinə, ssenarilərinə uymayın, müharibə variantında Rusiya ermənilərə görə Türkiyə və Azərbaycanla münasibətləri korlamaya da bilər və işğalçını Azərbaycanla baş-başa qoyar - ələlxüsus müharibə Azərbaycanın BMT tərəfindən tanınmış sərhədləri daxilində gedəcəksə...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018

**ABŞ-ın İsraildəki səfirliyini Qüdsə köçürməsindən sonra İsrail əsgərlərinin fələstinlilərin qətliamını həyata keçirməsi bölgədə vəziyyəti gərginləşdirib. Regionun böyük dövləti olan Türkiyənin yaranmış vəziyyətdə fələstinliləri müdafiə etməsi İsraill-Türkiyə münaisbətlərinin də sürətlə gərginləşməsi ilə müşayiət olunmaqdadır. Artıq Türkiyə İsraildəki səfirini geri çağırıb. Türkiyə həmçinin İsrailin Ankaradakı səfirini ölkədən çıxarıb. İsrailin Ankaradakı səfiri Eitan Naeh dünən Türkiyəni tərk edib.**



# Türkiyə-İsrail münasibətləri düşmənliyə doğru

## Elman Nəsirov: "Korlanmış Türkiyə-İsrail münasibətlərinin yenidən bərpa edilməsində Azərbaycanın potensialı genişdir"



İsrailin İstanbuldakı baş konsulu Yosef Levi Sfari də Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.

Baş konsuldan bir müddətliyinə öz ölkəsinə qayıtmaq tələb edilib.

Baş konsulun ölkədən çıxarılmasının əsas səbəbi kimi Qəzza zolağında baş vermiş gərginlik və fələstinlilərin İsrail əsgərləri tərəfindən qətl edilməsi göstərilib.

Siyasi mənbələrə görə, Türkiyənin bu addımı Qüdsdəki baş konsul Gürcan Türkoğlunun İsrail Xarici İşlər Nazirliyinə çağırılaraq Türkiyəyə qayıtmağı tələb olunması ilə bağlı olub.

İsrail Türkiyəyə idxalı dayandırıb.

**Türkiyə-İsrail münasibətlərinin hansı həddə qədər gərginləşə biləcəyi barədə deputat, politoloq Elman Nəsirov "Yeni Müsavat"a şərhində bildirdi ki, Yaxın Şərq partlamaq üzrə olan barıt çəlləyinə bənzəyir. Yaxın Şərq deyərkən assosiasiya olaraq ilk növbədə İsrail-Fələstin münaqişəsi yada düşür. 60 ildən çoxdur ki, bu münaqişə davam edir. Bir neçə dəfə intibah müşahidə edilib, lakin nəticə hasil olmayıb. İstənilən vaxt həmin o barıt çəlləyi partlaya bilər. Son günlər yaşanan hadisələr də bunu təsdiqləyir:** "Həqiqətən də ABŞ-ın öz səfirliyini Qüdsə köçürməsi ətrafında yaranmış gərginlik artıq münaqişənin yenidən hərbi fazaya keçməsini labüd edib. Yaranmış gərginlikdə diqqəti ən çox cəlb eləyən məqam Türkiyə ilə İsrail arasında vəziyyətin dramatikləşməsi ilə bağlıdır. Türkiyə ilə İsrail arasında bir neçə il öncə də son dərəcə gərgin vəziyyət yaranmışdı. Gərginlik hətta səfirlərin geri çağırılması, bütün iqtisadi, diplomatik münasibətlərin kəsilməsinə qədər gərginləşmişdi. Sonradan müəyyən yumşalma başladı. Bu yerdə mən bir faktı vurğulamaq istəyirəm ki, keçən əsrin 40-cı illərinin sonunda İsrailin müstəqilliyi elan edilərkən müsəlman dövlətləri içərisində İsrailin müstəqilliyini tanıyan ilk dövlət məhz Türkiyə olmuşdu. Uzun illər boyunca Türkiyə ilə İsrail arasında münasibətlər strateji xarakter kəsb edib. Lakin təxminən 10 ilə yaxındır ki, bu iki dövlət arasında münasibətlər daha çox ziqzaqvari xarakter kəsb edir. Ən çox da Fələstin-İsrail münaqişəsi kontekstində bu iki dövlət arasında vəziyyət gəginləşir. Son hadisələr fonunda isə vəziyyət kifayət qədər mürəkkəbləşib. Tərəflər bir-birini ittiham edirlər, münasibətlər pozulur. Bu prosesin hansı məntiqi sonluğa gətirib çıxara biləcəyinə gəlincə, burada iki variant üzərində düşünmək olar. Birinci variant kimi artıq tərəflərin bir-birinə düşmən kimi yanaşmağa başlamasıdır. Məsələn, İsrail-İran münasibətləri kimi. Bu, ən qorxulu ssenaridir. Çünki Türkiyə ilə İsrail bir-birinə düşmən gözü ilə baxdıqda bu münasibətə uyğun da addımlar atıla bilər. Bu addımlar isə çox böyük təhlükələr vəd edə bilər. Bu, arzulanmayan ssenaridir".

**E.Nəsirovun fikrincə, ikinci variant isə əvvəllər baş vermiş ssenarilərin təkrarıdır:** "Yeni tərəflər bir-birinə ittiham edirlər, amma bir-birinə qarşı sərt real addımların atılmasında məhdudiyyətlər tətbiq edilir, bir-birinə qarşı sanksiyalar tətbiq etmirlər, barışıq üçün də yer qoyurlar. Hesab edirəm ki, bu yolun seçilməsi gözlənilənidr və arzu ediləndir. Türkiyə ilə İsraili birləşdirən bir amil var. O da ABŞ-dır. Türkiyə ABŞ-la strateji müttəfiqdir, hər ikisi NATO ölkəsidir. İsrail isə Yaxın Şərqdə ABŞ-ın müttəfiqidir. ABŞ Yaxın Şərqdə öz maraqlarının təminatı məsələlərində məhz İsrailə stavka edir. Bu reallıq fonunda Türkiyə ilə İsrailin münasibətlərinin kritik həddə çatması və körpülərin yandırılması az ehtimal olunan variantlardan biridir. Hesab edirəm ki, Türkiyə və İsrailin xüsusilə hərbi təhlükəsizlik qurumları çox sıx əməkdaşlıq edirlər. Belə olan təqdirdə düşünürəm ki, münasibətlərin tam kəsilməsi və düşmənçilik səviyyəsinə gəlib çıxması ən az ehtimal olunan variantlardandır".

**Yaranmış vəziyyətdə Azərbaycanın necə davranmasına gəldikdə, E.Nəsirov qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında münasibətlər strateji müttəfiqlik xarakteri daşıyır. İsraillə Azərbaycan arasında münasibətlər inkişaf tempinə malikdir:** "Hər kəsə bəllidir ki, Azərbaycan prezidenti İlham Əliyev müstəqil siyasət həyata keçirir. Bizim İsraillə olan münasibətlərimiz qətiyyən bu ölkə ilə soyuq münasibətlərdə olan ölkələrə qarşı deyil. Bizim Türkiyə ilə də, İsraillə də xüsusi münasibətlərimizin olması nəticə etibarilə bu iki dövlət arasında gərginliyin aradan qaldırılması işinə kifayət qədər yararlı ola bilər. Azərbaycanın bu sahədə çox gözəl təcrübəsi var. Heç kəsə sirr deyil ki, bir neçə il əvvəl Türkiyə ilə Rusiya arasında kritik həddə gəlib çatmış münasibətlərin bərpasında Azərbaycan prezidentinin müstəsna xidmətləri var. Azərbaycanın müstəqil xarici siyasətinə dünyada böyük etimad göstərilir. Korlanmış Türkiyə-İsrail münasibətlərinin yenidən bərpa edilməsində Azərbaycanın potensialı genişdir".

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Tramp sözünün üstündə necə durdu?..

**Hüseynbala SƏLİMOV**



**ABŞ İsraildəki səfirliyini Yerusəlimə köçürdü, özü də vaxtından da bir az əvvəl. Həm böyük təntənə-şadyanalıq oldu, həm də qan töküldü - belə ki, səfirliyin açılış mərasiminə dəvət almış dövlətlərdən 30-dan çoxu tədbirə qatıldı. Fələstinlilər isə böyük etiraz aksiyası keçirdi, ölənlərin, yaralananların sayı o qədər çox oldu ki, bəlkə də son on ildə etirazlarda bu qədər itki olmamışdı.**

Diplomatik müstəvidə də çox böyük bir gərginlik yaşanır. Hətta Türkiyənin öz səfirlərini ABŞ-dan və İsraildən geri çağırması haqqında xəbərlər də səsləndi.

Biz bir məsələni təəssüf ki, aydınlaşdıra bilmədik. Bu da səfirliyin harada, hansı ünvanda yerləşməsi məsələsidir. Səfirliyin açılmasından bir az əvvəl ABŞ belə bir bəyanat yaydı ki, biz Yerusəlimin sərhədlərini müəyyən etmək fikrində deyilik...

Bəs bunu niyə diqqətə çəkirik? Məsələ bundadır ki, hələ D.Tramp səfirliyin Yerusəlimə köçürüləcəyi haqda qərar verərkən siyasi təhlilçilər diqqəti belə bir detala yönəltmişdi: Dünya birliyi, xüsusən də müsəlman ölkələri tərəfindən təzyiq görən D.Tramp son anda qayıdacaq ki, səfirliyi biz Yerusəlimin yəhudi hissəsinə köçürmüşük...

Ona görə də bizim üçün səfirliyin ünvanı çox maraqlı idi, amma çox təəssüf, onu müəyyənləşdirə bilmədik. Bir daha yada salaq ki, beynəlxalq siyasi və diplomatik leksikonda Şərqi və Qərbi Yerusəlim var.

Lap əvvəl Şərqi Yerusəlim Fələstin ərazisi kimi nəzərdə tutulmuşdu. Amma İsrail həmin ərazini də işğal edərək Yerusəlimi özünün bölünməz paytaxtı elan etdi.

Vəziyyətin qəlizliyi bilirsinizmi nədədir? Müqəddəs yerlərin demək olar ki, əksəriyyəti, o cümlədən də məşhur əl - Əqsa məscidi Şərqi Yerusəlimdədir və bəlkə də şəhər uğrunda savaşı gücləndirən əsas amil də elə budur.

Bəs vəziyyət necə inkişaf edəcək? Artıq bildirilib ki, daha iki ölkə - Qvatemala və Paraqvay da ABŞ-ın ardınca səfirliyini İsrailə köçürməyi planlaşdırır.

Güman, Avropa ölkələrinin çoxu hələ ki bunu etməyəcək və səbəbi də budur ki, avropalıların da Yerusəlimə iddiaları var: onlar "peyğəmbərlər şəhəri"ni nə fələstinlilərə, nə də ki, yəhudilərə güzəşt etmək istəmirlər və D.Trampın qərarına BMT-də Avropa ölkələrinin böyük təpki göstərməsi də elə bununla bağlı idi. Düşünmək lazım deyil ki, onlar bunu ərəblərə və yaxud da müsəlmanlara böyük simpatiyaları üzündən etmişdilər...

Müsəlman ölkələrindən ən sərt etiraz edən Türkiyə oldu. Bilirsiniz, bu, həm təqdirəlayiqdir, həm də bir az risklidir. Xüsusən də bir detala diqqət çəkmək istərdik: təəssüf, Türkiyə hökuməti sanki ABŞ - la münasibətləri bir az da soyutmaq üçün daim fürsət arayır.

İnanın ki, buna lüzum yoxdur. Mən bilmirəm, bəlkə də ABŞ-la Türkiyənin yollarının ayrılması labüddür. Amma bunu sürətləndirməyə ehtiyac yoxdur.

Bunları ABŞ siyasətinin müdafiəsi kimi qəbul etməyin: bəli, Şimali Koreya bir qədər fərqli siyasət yürütməyə başlayandan "boş vakansiya" yaranır, amma istəməzdik ki, bu "vakansiya"nı Ankara tutmuş olsun, ən azı ona görə ki, belə missiya üçün İran rejimi var - qoy, ürəkləri istəyən qədər söysünlər ABŞ-ı...

Ümumi halda regionda çox qəliz vəziyyət yaranıb. Etiraf edirik ki, bunun böyük hissəsini ABŞ-ın aktivinə yazmaq lazım gəlir. Məsələn, hələ də aydın deyil ki, ABŞ-ın Suriyadakı son raketfəşanlığı nəyə lazım idi? Bu, tək ona işarə idimi ki, burada ABŞ - sız heç nə həll oluna bilməz və yaxud da ABŞ-ın buradan getmək fikri yoxdur?..

Görünür, bunların hər ikisi vardı. Həm də Suriya da İranın astanasındadır. Səhər - axşam "İran!İran!" - deyən Vaşinqton üçün heç bundan yaxşı hərbi dislokasiya yeri olarmı?

Qərəz, görünən budur ki, amerikalı strateqlər də dinc dayanmır. Yaxın Şərq bir yana - Qafqaz da qaynayır. Məsələn, erməni inqilabının geosiyasi təmayülü ilə bağlı diskussiyalar səngimir. N.Paşinyan özünü V.Putinə təqdim edə bildi, onu əmin etdi ki, Rusiya ilə sıx münasibətlər bundan sonra da qorunacaq.

Amma o da var ki, N.Paşinyan erməni əsilli amerikalını,- Türkiyədə doğulmuş istisadçı D.Əcəmoğlunu özünün iqtisadiyyat üzrə məsləhətçisi təyin etmək istəyir. Bundan bir -iki gün əvvəl isə Paşinyan başqa adamı yox, Ermənistanın NATO -dakı keçmiş təmsilçisini müdafiə naziri təyin etdi.

Qərəz, duyulanı budur ki, ABŞ Rusyanın hər tərəfdən sıxışdırmaq istəyir. Amma həqiqətən məqsəd budursa, Qüdsdə səfirliyin açılmasını başqa vaxta saxlamaq daha düzgün olmazdımı?..

YENİ MÜSAVAT
N 107 (5996) 17 may 2018



# Müsəlmanlar Qüds sınağından niyə üzüağ çıxa bilmədi?

Kənan RÖVŞƏNOĞLU

**ABŞ-ın İsraildəki səfirliyini Qüdsə köçürməsi və buna etiraz edən 60-dan çox fələstinlinin qətlə yetirilməsi dünyada böyük təpkilərə səbəb oldu. Hətta İsrailin özündə yəhudilər hökumətin dinc insanların yürüşünə silahlı müdaxiləsinə etiraz etdi, ABŞ-da konqresmenlər Trampın və İsrail hökumətinin addımlarını pisləyən bəyanat yaydılar.**

Ancaq təbii ki, ən böyük gözlənti müsəlman ölkələrindən idi. Çünki Qüds müsəlmanların ilk qibləsi, yəni ibadət edərkən üzlərini tutduqları şəhər olub. Həzrət Məhəmməd (s.ə.s) bu şəhərdən "meraca" gedib. "Əl-Əqsa" Quranda mübarək məkan adlandırılıb, müsəlman aləmi üçün Məkkə və Mədinədən üçüncü müqəddəs məkandır. Məscidin adı Məhəmməd Peyğəmbərin (s.ə.s) sağlığında Məkkəyə ən uzaq yerdə olması səbəbindən "Məscid əl-Əqsa" adlandırılıb.

Müsəlman ölkələri uzun illər Qüds məsələsini "qırmızı xətt" elan ediblər və buna görə bir çoxu İsraillə əlaqələr qurmayıb. Hətta indinin özündə də bir sıra ölkələrin İsraillə diplomatik əlaqələri mövcud deyil, hətta İran, Səudiyyə Ərəbistanı, Pakistan kimi ölkələr İsraili dövlət kimi tanımır. Məhz Qüds şəhərinə görə bu şəhərin 1967-ci ildə İsrail ordusu tərəfindən işğalından sonra müsəlman ölkələri neft embarqosu elan ediblər və dünyada enerji böhranına səbəb olublar.

Ancaq konkret olaraq sonuncu hadisə bu günə qədər olanların, necə deyərlər, yekunu idi. İsrail Qüds şəhərini paytaxt kimi rəsmiləşdirirdi. ABŞ artıq bu şəhəri İsrailin paytaxtı olaraq tanıyaraq səfirliyini Qüdsə köçürdü. Eyni zamanda yaxın zamanlarda digər bir neçə ölkənin də səfirliyini Qüdsə köçürəcəyi ehtimal olunur. Baş nazir Netanyahu isə deyib ki, gələn il "Eurovision" mahnı yarışması Qüdsdə keçiriləcək. Yəni artıq necə deyərlər, "cin şüşədən çıxıb".

İsrail və ABŞ-ın Qüdslə bağlı qərarına və Qəzzada törədilən qətliama müsəlman ölkələrinin reaksiyası çox sönük oldu. Yalnız Türkiyə İsraildəki səfirini geri çağırdı. Pakistan və daha bir neçə ölkə isə baş verənləri qınadılar. Misir, Səudiyyə Ərəbistanı və Bəhreyn kimi ölkələr isə nəinki proseslərə seyrçi qalmadılar, əksinə, İsrailin addımlarını "özünümüdafiə" adı ilə dəstəklədilər. Misirin kəşfiyyat naziri isə Həmas siyasi büro sədri İsmayıl Haniyədən aksiyaları dayandırmağı tələb edib.

Bu hadisələr bir daha müsəlman aləmi, ümmət kimi bir anlayışın olmadığını sübut edir. Yeri gəlmişkən, son hadisələrdə səsi çıxmayan İslam Əməkdaşlıq Təşkilatı ötən əsrin 60-cı illərində məhz Fələstin məsələsi ilə bağlı yaradılıb və ötən 50 ildə heç bir ciddi addım ata bilməyib. İndi də hər hansı birgə addım ata bilmədilər. Əlbəttə, ərəblərin və ya müsəlman ölkələrinin birləşib İsraillə savaşdığı tarixlər çox keçmişdə qalıb. İndi İsrailə raket atmağa cəsarət edə biləcək qüvvə Qəzzada Həmas, İslami Cihad, Livanda Hizbullah və Suriyadakı İran tərəfdarı silahlı qruplardır. Ancaq müsəlman ölkələri ən azı birgə hərəkət edərək İsrailə və ABŞ-a qarşı ortaq mövqe müəyyən edə, ən azından insani faciənin qarşısını ala, məsələnin BMT müstəvisində həllinə nail ola bilərdi. Ötən ilin dekabrında BMT-də keçirilən səsvermədə dünya ölkələri Fələstinin yanında dayandılar. Ancaq indi əvvəldən bilindiyi halda müsəlmanlar 15 maya hər hansı hazırlıq görmədilər və faktiki olaraq gedişatla barışdılar.

Bunun isə əsas səbəbi müsəlman aləmində baş verən müharibələr, və bölünməlірdir. Yaxın Şərqdə davam edən müharibələr. geostrateji maraqlar müsəlman ölkələri arasında dərin uçurumlar yaradıb. Suriya məsələsinə görə, açıq olmasa da, İran və Türkiyə arasında, eləcə də İran və Səudiyyə, o cümlədən digər müsəlman ölkələri arasında düşmənçilik var. Yəmən münaqişəsinə görə Səudiyyə və BƏƏ İranla faktiki olaraq düşməndir. Ötən il baş verən Qətər böhranı Liviya və Misirdə aralarında fikir ayrılığı yaranan Türkiyə və Qətər ittifaqı ilə Səudiyyə Ərəbistanı, BƏƏ, Misir, Küveyt, Bəhreyn kimi ölkələr arasında az qala savaşa səbəb olacaq həddə düşmənçilik var. Hazırda da bu böhranlar davam edir.

Belə bir vəziyyətdə müsəlman ölkələrinin "köhnə problem" olan Qüds üçün bir araya gəlməsi real deyil, necə ki, olmadı. Əksinə, Səudiyyə Ərəbistanı, Misir kimi ölkələr İran və Türkiyə kimi ölkələrə qarşı İsraillə yaxınlaşmaq xəttini tutdular. Hazırda mürəkkəb vəziyyətdə müsəlman ölkələrinin hətta formal da olsa qərar almaq üçün bir araya gəlməsi mümkün olmadı. Ehtimal ki, bundan sonra da daha təsirli qərarların alınması mümkün olmayacaq. Təbii ki, ərəb-müsəlman cəmiyyətində köklü dəyişikliklər olmasa.



# Nazirin "danışıqlara hazırıq" bəyanatı etiraz doğurdu

## Tofiq Zülfüqarov: "Biz blogger Lapşini məhz həmin cinayətə görə - Qarabağa qanunsuz səfər etməsinə görə tutmamışdıqmı?"

## Elxan Şahinoğlu: "Sülh Azərbaycan torpaqlarının boşaldılması halında mümkündür"

**Məlum olduğu kimi, xarici işlər naziri Elmar Məmmədyarov 15 may tarixində Parisdə ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspişiklə görüşüb. Bu danışıqlar zamanı XİN rəhbərinin səsləndirdiyi fikirlər birmənalı qarşılanmayıb, hətta etirazlar doğurub.**

Azərbaycan və Ermənistanda seçki prosesinin başa çatdığı nəzərə alaraq, danışıqların intensiv şəkildə davam etdirilməsinin vacibliyi qeyd olunub. Nazir Elmar Məmmədyarov Azərbaycanın münaqişənin tezliklə həll edilməsi üçün intensiv danışıqlara hazırlığını bir daha ifadə edib. Məlumata görə, görüş əsnasında danışıqlar prosesinin irəlilədilməsi üçün ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən həyata keçiriləcək tədbirlər, həmçinin regiondakı vəziyyət ətraflı müzakirə olunub.

"Azərbaycan münaqişənin tezliklə həlli üçün mahiyyətli və predmetli danışıqlara hazırdır" mövqeyinə təpki göstərənlər bir neçə gün əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın qanunsuz olaraq Qarabağa gəlməsini və oradan Azərbaycanı təhdid edən bəyanatlar verməsini önə çəkir.

**Xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a bildirdi ki, Paşinyanın Azərbaycanı təhdid edən bəyanatlarından cəmi bir neçə gün sonra nazir səviyyəsində danışıqlara hazır olduğumuzu bəyan etmək düzgün mövqe deyildi:** "Ermənistan doğrudan da sülhə nail olmaq istəyirsə, Azərbaycan qanunlarına hörmətlə yanaşmalıdır. Bu, sülhə ən qısa yoldur. Ancaq Paşinyan Azərbaycan qanunlarını kobud şəkildə pozub, ölkəmizin ərazi bütövlüyünə qarşı bəyanatlar verib. Buna sərt reaksiya verilməli idi. Ermənistanın baş nazirinin Qarabağa qeyri-qanuni gəlməsinə Azərbaycan xalqı çox sərt reaksiya verdi. Ölkə əhalisi deyir ki, Paşinyanın vertolyotu vurulmalı idi. Çünki xarici ölkənin vətəndaşı beynəlxalq qanunları kobud şəkildə tapdayıb, Azərbaycanın ərazi bütövlüyünü pozub, təbii ki, onun vertolyotunu vurmaq lazım idi. Ancaq bunun qarşılığında "danışıqlara hazırıq" bəyanatını vermək qəbulolunmazdır".

**T.Zülfüqarov Qarabağa qanunsuz uçuşların adi hal almaması üçün konkret təklif də irəli sürdü:** "Əvvəlcədən bəyan etmək lazım idi ki, biz oranı uçuşa bağlı zona elan edirik. Bütün dünyaya yaymaq lazımdır ki. filan koordinatlar üzrə hava məkanı uçuşlara qapalı zonadır. Əks təqdirdə, hərbi, yaxud sivil təyyarələrin hamısı koordinatlara uyğun olaraq vurulacaq. Hər bir ölkənin belə bir addım atmaq hüququ var. Paşinyanı da xəbərdar etmək lazım idi ki, Qarabağa uçsan, vuracağıq! Yəni uçma, peşman da olma!"

**Sabiq nazir bir daha E.Məmmədyarovun danışıqlarla bağlı mövqeyinə qayıtdı:** "Biz blogger Lapşini məhz həmin cinayətə görə - Qarabağa qanunsuz səfər etməsinə görə tutmamışdıqmı? Onda niyə Qarabağa qanunsuz səfər edən Paşinyanla danışıqlara hazır olduğumuzu bəyan edirik? Bu bəyanat nəyə lazım idi, kim gözləyirdi bunu? İstənilən halda, məntiqəuyğun olmayan addımdır".

**T.Zülfüqarov XİN rəhbərinin bununla təlimata uyğun davrandığı barədə fikirləri bölüşmədi və öz təcrübəsindən danışdı:** "Mən mərhum Heydər Əliyevlə işlədiyim dövrdə şahidi olmuşam ki, dövlət başçısı əsas təklifləri mütəxəssislərdən alırdı. Yaxud hansısa ideyalar irəli sürülürdü və tətbiq olunurdu. Heç olmasa sən nazir kimi təklif ver! Nazir bu gün ictimaiyyətin rəyini nəzərə almalıdır, ona uyğun davranmalı, ortaya mövqe qoymalıdır. Amma bizdə ictimaiyyətin səsi heç eşidilmir. Ermənilər ictimai rəyə istinad edirlər. Paşinyanın bu bəyanatları çox kəskin əks-səda doğurub, buna uyğun addım atılmalı olduğu halda, tamam başqa mövqe tutuldu. Paşinyanın səfərinə uyğun olaraq bəyan etmək lazım idi ki, hələlik atəşkəsi pozmuruq. Amma bizim ərazi bütövlüyümüzə qəsdi bağışlamayacağıq".

Sabiq nazir həmsədrlərlə son görüşdən və onların yaydığı bəyanatdan gözləntisini bu şəkildə ifadə etdi: "Heç nə gözləmirəm".

**"Xarici işlər naziri Elmar Məmmədyarovu anlamaqda çətinlik çəkirəm. Ermənistanın baş naziri qanunsuz olaraq işğal altındakı torpaqlara gəlir, Azərbaycanın ünvanına aşağılayıcı fikirlər söyləyir, Məmmədyarov isə Parisdə həmsədrlə görüşdə sülh prosesinin irəli aparılmasından danışır".**

**Bu fikirləri isə politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a söylədi. Ekspertin sözlərinə görə, indi bu bəyanatın yeri deyildi:** "Məmmədyarov deməliydi ki, Ermənistan rəsmiləri Qarabağ qanunsuz gəlmələri, işğal altındakı torpaqlarda qeyri-qanuni infrastruktur çalışmaları aparmaqla və təxribatçı açıqlamaları ilə sülhün əldə olunmasını mümkünsüz hala gətirirlər, bu da cəbhə bölgəsindəki vəziyyəti gərginləşdirir. Bunun əvəzinə Məmmədyarov sülhdən danışır. Sülh Azərbaycan torpaqlarının boşaldılması halında mümkündür. Ermənistanda bir-birini dəyişən hakimiyyətlər isə torpaqları boşaltmaq istəmirlər. Belə görünür ki, Məmmədyarov sərt bəyanat verməK iqtidarında deyil. Onun yumşaq açıqlamaları danışıqlarda bizim mövqeyimizi zəiflədir".

Qeyd edək ki, Paşinyan Soçi toplantısında daha uzağa gedərək, Belarus prezidenti Lukaşenko ilə görüşü zamanı Azərbaycana silah satılması məsələsini də qaldırıb. Erməni baş nazirin sözlərinə görə, Belarus prezidentinin bu məsələyə reaksiyası "normal" olub. Həmçinin Rusiya prezidenti ilə görüşdə də Azərbaycana silah satışının dayandırılması iddiasını səsləndirib. Göründüyü kimi, Paşinyan işğala son qoymaqdansa, Azərbaycana silah sanksiyasının tətbiqinə çalışır. Belə olan halda, onunla danışıqların mənası qalmır.

Bir neçə gün əvvəl Ermənistanın baş naziri Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda yalnız İrəvanın adından danışmağa hazır olduğunu bildirmişdi ki, bu bəyanat hətta onun öz ölkəsində təpkilərə səbəb olub. Onun sözlərinə görə, Dağlıq Qarabağ tənzimlənməsi üzrə danışıqların mövcud formatı məsələni həll edə bilməz, çünki münaqişənin əsas tərəflərindən biri danışıqlarda iştirak etmir. Nikol Paşinyanın sözlərinə görə, əgər tərəflər problemi həqiqətən həll etmək niyyətindədirlər, nəzərə almalıdırlar ki, "məsələnin həllinin başlıca komponenti danışıqların düzgün formatda aparılmasıdır". Azərbaycan bildirir ki, Qarabağ münaqişəsi üzrə danışıqlar formatının dəyişdirilməsi qeyri-məqbuldur. "Mənim Qarabağ tənzimlənməsinə dair bəyanatlarımda çox ciddi yeniliklər vardır, ən ciddisi ondadır ki, mən Azərbaycan prezidenti ilə Ermənistan Respublikası adından danışıqlar aparmağa hazıram, "Artsax" Respublikası (tanınmamış DQR-red.) adından isə danışıqları respublika prezidenti simasında Artsax hakimiyyəti aparmalıdır", - Ermənistanın yeni baş naziri deyib. Hazırda danışıqlar masası üzərində olan qarşılıqlı güzəştlər məsələsinə gəldikdə, Nikol Paşinyanın sözlərinə görə, bu barədə söhbət "yalnız o zaman gedə bilər, nə zaman ki, erməni tərəflərinə Azərbaycandan Bakının Artsax xalqının öz müqəddəratını həll etmək hüququnu tanımağa hazır olduğu haqqında konkret siqnal verilər".

**N.Paşinyanın Dağlıq Qarabağa səfəri zamanı verdiyi açıqlamalar Bakıda tənqidlə qarşılanmışdı. Azərbaycan XİN onun danışıqlar prosesi haqqında verdiyi "ziddiyyətli açıqlamaları"nın təəssüf doğurduğunu bildirmişdi.** "Ermənistanın yeni baş naziri ilk addım kimi Ermənistan əhalisinin çoxdan ehtiyac duyduğu iqtisadi-sosial islahatlara başlamaq əvəzinə Dağlıq Qarabağ mövzusuna müraciət edərək siyasi aqitasiyaya üstünlük verir", - Azərbaycan XİN-ın mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirmişdi. Bəyanatda ümid edilirdi ki, Ermənistanın yeni siyasi rəhbərliyi sələflərinin "səhvlərini təkrar etməyəcək", və qonşu dövlətlərlə sülh şəraitində yaşamaq üçün "sivil münasibətlər qurmağa çalışacaq".

Lakin görünən budur ki, Paşinyan sələflərinin səhvlərindən nəticə çıxartmaq istəmir və Bakının Ermənistanla danışıqlara hazırlığını bəyan etməsi işğalçı ölkəni bir az da şirnikləndirə bilər...

Ekspertlərin XİN rəhbərinin fikirlərinə tənqidi münasibətinə nazirlikdən münasibət öyrənmək cəhdimiz isə nəticə vermədi.

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018

**Ermənistanda küçə hərəkatı dalğasında hakimiyyətə gəlmiş baş nazir Nikol Paşinyanı yaxşı perspektiv gözləmədiyi barədə ehtimalların gerçəkləşməsi üçün deyəsən, çox gözləmək lazım gəlməyəcək. Hər halda Paşinyanın baş nazirliyinin ilk on günlüyündə İrəvanda davamlı aksiyaların keçirilməsi bundan xəbər verir.**






# Azərbaycana meydan oxumaq istəyən Paşinyanı "Qarabağ klanı" yola sala bilər

## İrəvanda siyasi hərarət yenidən artır; **ekspert:** "Paşinyan ya öncəki "qaydalara" uyğun siyasət aparmalıdır, ya da qısa zamanda postunu təhvil verməlidir..."

Aprel-may aylarında gərginliklərin mərkəzinə çevrilən Ermənistan paytaxtında etirazlar lokal da olsa, davam edir. Mayın 15-də fabrik işçiləri ayağa qalxmışdısa, mayın 16-da İrəvandakı "Nairit" zavodunun keçmiş və indiki işçiləri Ermənistan baş nazirinin iqamətgahı önündə etirazlara başlayıblar. Eirazçılar zavodun yenidən işə salınmasını və ötən 4 aydan qalan maaşlarının ödənilməsini tələb edib. "Biz istəyirik ki, hökumət ağır vəziyyətdən xəbərdar olsun", - zavodun keçmiş direktoru Karen İsraelyan deyib. Aksiya iştirakçıları bildirib ki, yanvarın 1-də əmək müqavilələrinin vaxtı bitsə də, işdən qovulmaq barədə əmr yoxdur. Onlar bu müddət ərzində işləyib, "Nairit"in təhlükəsizliyini təmin ediblər. Amma 4 ayda bir dəfə də maaş almayıblar. Baş nazirin nümayəndələri 3 nəfər aksiya iştirakçısını hökumət iqamətgahına dəvət edib. Onları kimin qəbul edəcəyi ilə bağlı məlumat verilməyib. Axar.az xəbər verir ki, paralel surətdə İrəvanda daha geniş kütləvi aksiya keçirilir. Yolları bloklayan, meriya binasına girən aksiyaçılar merin istefasını, hazırda məhkəməsi gedən "Sasna Çrer" silahlı qruplaşması üzvlərinin azad olunmasını tələb edirlər.

Xatırladaq ki, sözügedən qruplaşma 2016-cı ilin aprel döyüşlərindən sonra polis alayına silahlı hücum etdiyi üçün cəzalandırılıb. Bu aksiyalar lokal xarakter daşısa da, onların hansısa gizli mərkəz tərəfindən idarə edildiyi barədə təxminlər var. Erməni və rus ekspertləri də vaxtaşırı bildirirlər ki, Paşinyan Kremlin Ermənistandakı planlarını pozduğu üçün gec-tez cəzasını alacaq. O, deputat olduğu dönəmdə qatı Rusiya əleyhdarı kimi çıxışlar edib və Ermənistanın Rusiya asılılığından xilas edilməsi istiqamətində səy göstərib. Sözsüz ki, Kremldəkilər bunu da unutmayıb. Odur ki, N.Paşinyanın ilk Rusiya prezidenti Vladimir Putinlə görüşünün onu xilas etməyəcəyini söyləmək olar. Əksər müşahidəçilərə görə, Paşinyan bu görüş zamanı forpost ölkənin hökumət başçısı olaraq, sadəcə, ağasından təlimatlar və xəbərdarlıqlar alıb. Hətta onun Putinə Azərbaycana silah satışı ilə bağlı xatırlatmasına da ciddi önəm verilmədiyi bəllidir.

Bu arada rusiyalı politoloq Sergey Markovun Soçi görüşündən sonra İrəvan-Moskva əlaqələrində mümkün dəyişiklikləri şərh edərək səsləndirdiyi fikirlər diqqət çəkir. "Hamı üçün maraqlıdır ki, Paşinyan əsl inqilabçıdır, yoxsa özünü inqilabçılığa vuran sistemli siyasətçi? Dediyi kimi, o, qərbyönlüdür, yoxsa əksər Ermənistan əhalisi kimi tamamilə rusiyayönlü? Hər halda, o, birinci səfərini məhz Rusiyaya etdi. Ancaq Viktor Yuşşenko (Ukraynanın sabiq prezidenti, "narıncı inqilab"ın lideri - red.) və Mixail Saakaşvilinin (Gürcüstanın eks-prezidenti, "qızılgül inqilabı"nın lideri - red.) də ilk səfərlərin məhz Rusiyaya etmişdilər. O vaxt Ukraynada da, Gürcüstanda da əhalinin böyük hissəsi rusiyameylli idi. Əslində elə o üzdən də Yuşşenko və Saakaşvil dərhal Rusiyaya uçdular ki, xalqı sakitləşdirsinlər: yəni Moskva ilə münasibətlər pisləşməyəcək". Göründüyü kimi, Markov Paşinyana gürcü və ukraynalı "məxməri inqilab" liderlərinin taleyini xatırladıb. İrəvanda yaşananlar da bu xəbərdarlıqların boşuna olmadığını deməyə əsas yaradır.

"Sputnik Ermənistan" yazıb ki, onlarla etirazçı İrəvan meriyasının binasına daxil olub. Binaya daxil olan etirazçılar mer Taron Markaryanın istefasını tələb ediblər. Meriyaya daxil olan etirazçılara aktivist Vaçe Qəribyan rəhbərlik edib. Meriya ilə bərabər, İrəvanda bir sıra əsas küçələr də etirazçılar tərəfindən bağlanıb. Küçələri bağlayan etirazçılar "Sasna Çrer" qrupunun həbsdəki üzvlərinin azadlığa buraxılmasını istəyiblər. Aksiyalara qrupun həbsdəki üzvlərinin qohumları da qoşulub. Onlar həbsdə olan qrup üzvlərinin azadlığa çıxmayacağı təqdirdə 16:00-dan etibarən etirazların coğrafiyasını genişləndirəcəklərini açıqlayıblar. Paşinyanın başlatdığı inqilab da əvvəlcə ictimai radionun binasına basqından başlamışdı.

Bu mənada Ermənistan paytaxtında hər an "fors-major" hadisələrin baş verməsi və bu dalğanın Paşinyanı da öz ağuşuna alması mümkündür. Fakt budur ki, Ermənistan parlamentində hələ də Serj Sərkisyanın rəhbərlik etdiyi Respublikaçı partiyanın üzvləri əksəriyyət təşkil edir və yeni seçkilərin vaxtı bəlli deyil. "Qarabağ klanı" Rusiyanın da dəstəyini alıb, aralıq müddətdə yeni hökuməti devirmək üçün hərəkətə keçə bilər.

Siyasət meydanında piyada olan Paşinyan da S.Sərkisyanın təcrübəsindən yararlanmağa cəhd göstərir. Belə ki, sələfləri kimi ilk olaraq Qarabağa gəlib sərt ritorika ilə çıxış edən N.Paşinyan indi də təbliğatda müharibə amilini önə çıxarıb ictimai rəyi daxildəki proseslərdən yayındırmağa, hakimiyyətdə möhkəmlənməyə çalışır. Elə iki gün əvvəl Ermənistan silahlı qüvvələrinin Baş qərargahının rəisi Movses Akopyanın Qarabağa gələrək Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri ilə Dağlıq Qarabağdakı işğalçı erməni qüvvələri arasındakı "anlaşmaya" uyğun şəkildə operativ-taktiki təlimlərə rəhbərlik etməsi də eyni ssenarinin tərkib hissəsidir. Bu təlimlərin Ermənistanda Nikol Paşinyanın rəhbərliyi ilə formalaşdırılan yeni hökumətin işə başlamasından bir neçə gün sonraya təsadüf etməsi də diqqət çəkir. Erməni mənbələri iddia edir ki, təlimlərdə bir sıra yeni silahlar da tətbiq edilib.

**Bundan əvvəl Azərbaycanın müdafiə naziri ordunun yüksək vəzifəli şəxsləri ilə müşavirə keçirmişdi və təmas xəttində düşmənin hər hansı mümkün təxribatlarının qarşısının alınması üçün tapşırıqlar verilmişdi. Müdafiə naziri Zakir Həsənov Ermənistanın yeni hakimiyyətinin Qarabağa dair populist bəyanatlarına cavab olaraq xəbərdarlıq etmişdi ki, Azərbaycan ordusu irimiqyaslı döyüş əməliyyatlarına başlamağa tam hazırdır. İndi işğalçı qüvvələrin Azərbaycan ərazilərində Ermənistandan da əlavə hərbi hissələr cəlb olunmaqla keçirdiyi təlimlər də yəqin ki, cavabsız qalmayacaq. Ancaq maraqlısı Ermənistanın məqsədli şəkildə Azərbaycanı savaşa çəkmək cəhdləridir.**

"Azərbaycan gözləyir, əgər Ermənistanın müdafiə sistemində boşluq olacaqsa, onda təhlükə arta bilər". Publika.az xəbər verir ki, bu barədə erməni politoloq Aleksandr İskəndəryan deyib. Onun sözlərinə görə, təmas xəttində gərginliyin olması təhlükəsi həmişə var. "1994-cü ildən sonra bu, həmişə aktual olub. Təmas xəttinə texnikanın yerləşdirilməsi, qüvvələrin yerdəyişməsi kimi addımlar isə hərbiçilərin adi, normal işidir", - deyə o bildirib.

Birmənalı şəkildə demək olmaz ki, hazırkı məqamda Paşinyana aprel döyüşləri kimi bir əməliyyat hava və su kimi lazımdır. Bu savaşın nəticəsinin çox ağır olacağını Paşinyan da bilməmiş deyil. Lakin o da mümkündür ki, Qarabağdakı gərginliyi elə orduda kifayət qədər dayaqları olan S.Sərkisyan, həmçinin elə istefaya getdiyi gündən yeni hökuməti tənqid edən sabiq müdafiə naziri V.Sərkisyan körükləməyə çalışsın. S.Sərkisyan hakimiyyəti uğrunda erməniləri qurban verməyə öyrənçəli adamdır, bunu ötən illərin təcrübəsi sübut edir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın baş naziri hələ gələcək fəaliyyətinin konturlarını müəyyənləşdirməyə çalışır:** "Paşinyanın daxili və xarici siyasətdə manevr imkanları məhduddur. Serj Sərkisyan hakimiyyətdən getsə də, onu istefaya məcbur edən Paşinyana zərbə endirməyə məqam axtarır. Paşinyanın daxili və xarici siyasətdə kiçicik səhvi ona baha başa gələcək. Çünki qarşısında böyük güc var. Digər tərəfdən, Putin Soçidə Paşinyana qırmızı çizgiləri izah edib. Əgər Paşinyan həmin qırmızı çizgiləri aşsa, bu, onun hakimiyyətinin itirilməsinə səbəb olacaq. Ona görə də Paşinyan hər dəfə Qərbə baxdıqda arxasında Kremlin nəfəsini hiss edəcək və bu hiss onu bütün hakimiyyəti boyu izləyəcək".

**E.Şahinoğlu bu ərəfədə Azərbaycanın işğal altındakı ərazilərində hərbi təlimlərin başlanmasını səbəbsiz saymır:** "Dağlıq Qarabağda başlanan təlimlər Azərbaycana mesajdır ki, guya müdafiə qabiliyyətləri yüksəkdir. Dağlıq Qarabağda hərbi təlimlər Paşinyanın əmri ilə keçirilir. Çünki Qarabağ separatçıları Ermənistanın baş nazirini xəbərdar etmədən bu təlimlərə başlamazdılar. Bu, o deməkdir ki, Paşinyan Qarabağ məsələsində Sərkisyandan heç nə ilə fərqlənməyəcək. Odur ki, müdafiə nazirimiz Zakir Həsənov sərt açıqlamalarına davam etməlidir".

**Ermənişünas alim Qafar Çaxmaqlı isə qeyd etdi ki, Nikol Paşinyan hakimiyyətə gələn kimi verdiyi bəyanatlar onun siyasətdə naşı olduğunu isbatlayan cəhətlərdir:** "Bundan sonrakı vaxtlarda onun naşılığı daha çox üzə çıxacaq. Dağlıq Qarabağdakı separatçı qurumun danışıqlar prosesinə cəlb edilməsini istəyən bu adamın xəbəri yoxdur ki, illər öncə artıq beynəlxalq qurumlar tərəfindən münaqişə tərəfləri müəyyən edilib. Bu, Azərbaycan və Ermənistandır. Dağlıq Qarabağın azərbaycanlı və erməni icması danışıqlar prosesinin hansısa mərhələsində bu prosesə qoşula bilərlər. İndiki halda qondarma qurumun tərəf kimi ortaya atılması təxribatdan başqa bir şey deyil və bu, qəbul edilə bilməz. Bundan öncəki danışıqlar prosesində də bu məsələ Ermənistan tərəfindən dəfələrlə ortaya atılmışdı, amma bunun özü danışıqlar prosesini uzatmaq məqsədi güddüyündən, onu Minsk Qrupunun həmsədrləri də qeyd etmişdilər. "DQR" deyilən bu qurumun Ermənistan tərəfindən tanınması isə mümkün deyil. Kaş ki, Ermənistan onu tanıyaydı. O zaman bizim əlimizə yaxşı bir fürsət düşə bilər".

**Q.Çaxmaqlının fikrincə, Rusiyanın bu məsələdə "qırmızı çizgiləri" var, onu pozan adam cəzalanacaq:** "Ermənistanda baş verən bu inqilabi proseslər lazımı, onun istədiyi məcraya düşməsə, Rusiya müdaxilə edəcək. Müdaxilənin də müxtəlif variantları var. Bu, ola bilər ki, cəbhə xəttində məhəlli savaşa da çevrilsin. Amma inanmıram ki, bəzi politoloqların iddia etdiyi kimi, Rusiya Azərbaycanın tərəfinə keçsin. Rusiyanın tərəfi bəllidir, Ermənistan onun strateji müttəfiqidir. Hərbi bazası bu ölkədə yerləşir, hərbi baxımdan Ermənistan Rusiya üçün əvəzsiz ölkədir. Bununla belə, etirazlar dalğası üzərində başa gələn bu adam meydanda verdiyi sözlərini tutmağa çalışsa, böhran daha da dərinləşə bilər. Bu da bizim maraqlarımız baxımından məqbuldur. Mən o fikirdəyəm ki, Paşinyan hakimiyyəti ya öncəki "qaydalara" uyğun siyasət aparmalıdır, ya da qısa zamanda postunu təhvil verməlidir. Düşünürəm ki, xarici faktorlar bu məsələdə təyinedici rol oynayacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

**Dünya neft bazarında qiymətlərin yüksəlməsi Azərbaycana da təsirsiz ötüşmür. Belə ki, Azərbaycan neftinin qiyməti də son günlərdə yüksəlməkdədir. Hazırda "AzeriLight" markalı neftin 1 barelinin dəyəri 0,67 dollar və ya 0,85 artaraq 79,28 dollara çatıb.**

# Neftin qiymətinin artması nə vəd edir...

## Qubad İbadoğlu: "Hakimiyyət neft gəlirlərinə güvənən siyasətə qayıtmamalıdır"

Qiymətlərin yüksək olması Azərbaycanda neft hasilatının artmasını şərtləndirib. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında ölkədə 12 817,1 min ton xam neft (qaz kondensatı daxil olmaqla) istehsal olunub. Bu, 2017-ci ilin yanvar-aprel ayının göstəricilərinə nisbətən 1,4 faiz çoxdur.

Energetika Nazirliyinin açıqladığı məlumata görə isə aprel ayı ərzində ölkə üzrə gündəlik neft hasilatı 785,7 min barel olub. Bunun 755,7 min barelini xam neft, 30 min barelini kondensat təşkil edib. Gündəlik 623,6 min barel xam neft, 30 min barel kondensat, 21,7 min barel isə neft məhsulları ixrac edilib.

Gündəlik neft hasilatı cari ilin yanvar ayında 814,6 min barel, fevral ayında 806 min barel, mart ayında isə 794 min barel olub. 2017-ci il ərzində ölkəmizdə orta gündəlik neft hasilatı 781,9 min barel təşkil edib.

Xatırladaq ki, Rusiyanın neft nəhəngi olan "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov neft qiymətlərinin 70 dollara yaxınlaşdığı dövrdə onun daha artıq yüksəlməsinin zərərli olacağını bildirmişdi. İndi isə neft 80 dollara yaxınlaşmaqdadır. Bu cür yüksək qiymətlər Azərbaycan üçün də zərərli nəticələrə səbəb ola bilərmi? Neftin qiymətinin yüksəlməsi ölkəmiz üçün hansı müsbət və mənfi nəticələr vəd edir?

**Sualları cavablandıran iqtisadçı-alim, ADR hərəkatının rəhbəri Qubad İbadoğlu deyir ki, qiymətlərin yüksəlməsi Azərbaycan kimi orta və aşağı səviyyəli neft ixaracatçıları üçün daha effektlidir, nəinki böyük hasilatçılar üçün:** "Böyük ixracatçıların gəlirlərinin birdən-birə daha çox artması onların yerləşdirilməsi, idarə olunması ilə bağlı müəyyən problemlər yaradır. Azərbaycan üçün düşünürəm ki, indiki qiymət səviyyəsi məqbuldur. Çünki yüksək maliyyə resurslarına çıxış imkanları yaradır, xarici ticarət balansında müsbət saldonu artırır, tədiyə balansının pozitiv qalığı yaranır ki, bu da manatın məzənnəsinin tənzimlənməsi sahəsində əlavə imkanlar formalaşdırır".

**Neft qiymətlərinin artması bəzi arzuolunmaz hallara da səbəb olur:** "Əsas gəlirlərimizdə, dövlət büdcəsində neftin, neft gəlirlərinin payı çoxalır. Dövlət Neft Fondundan büdcəyə transfert sabit məbləğ olsa da, qiymət fərqindən dolayı büdcəyə ayırmalar, Dövlət Neft Şirkətinin büdcəyə ödəmələri artır. Digər tərəfdən, xarici neft şirkətlərinin mənfəət vergisi ödənişləri çoxalır ki, bütün bunlar da büdcədə neft gəlirlərinin xüsusi çəkisinin artmasına gətirib çıxarır. Bundan əlavə, neftin qiymətinin belə artması, ölkəyə əlavə valyuta vəsaitlərinin gəlməsi dövlət-hakimiyyət orqanlarında iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sektorunun inkişafına yönəlik islahatların sürətləndirilməsi baxımından arxayınçılıq yaradır. Üçüncü təsir ondan ibarətdir ki, neftin qiymətinin artması idxalı stimullaşdırır. Bu ilin dörd ayının yekunları göstərir ki, əvvəlki illərə nisbətən idxal xeyli artıb. Ölkədə manatın məzənnəsi sabit saxlanılır. Əsas ticarət tərəfdaşlarımız olan qonşu ölkələr olan Rusiya və Türkiyədə milli valyutalar dəyərdən düşür, ixrac stimullaşır. Nəticədə, Azərbaycanda idxal inflyasiyasının qiymətlərə təsiri güclənir".



**Neft qiymətlərinin artması Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkişafına yönəlmiş islahatların tamamilə arxa plana keçməsinə gətirib çıxara bilərmi?**

**Q.İbadoğlu hesab edir ki, bu, mümkün deyil:** "Düşünmürəm ki, islahatlar tam arxa plana keçirilsin. Lakin arxayınçılığın yaranması, neftə güvənən siyasətin bərpası mümkündür. Halbuki neft gəlirlərinin artması islahatlar üçün əlverişli maliyyə resursunun yaranması deməkdir. Hakimiyyət islahatlara gedərək bu resursdan səmərəli şəkildə yararlana bilər. Nəhayət, hesab edirəm ki, hakimiyyət fərqindədir ki, neft qiymətləri həmişə belə yüksək qalmaya bilir. Bu baxımdan, qeyri-neft iqtisadiyyatını inkişaf etdirməyə məcburdurlar ki, növbəti dəfə iqtisadi durğunluq və geriləmə ilə üzləşməsinlər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Ramazan təqvimindəki fərqin səbəbi

## Məzhəb ayrılığı, siyasi baxışlar dini mövzuya da təsir edir

**Xəbər verdiyimiz kimi, Azərbaycanda Ramazan ayının, yəni orucluğun birinci günü mayın 17-nə təsadüf edəcək. Bununla bağlı mayın 15-də Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası toplantı keçirərək fətva verib.**







QMİ-nin fətvasında qeyd olunur ki, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının 2018-ci il üzrə hesablamalarına görə, Ramazan ayının 1-i Ayın ölkə ərazimizin üfüqünə uyğun görünməsinə əsasən Miladi tarixlə may ayının 17-nə təsadüf edəcək. Mayın 16-sı axşam niyyət gecəsi olacaq.

Ancaq bu il də Ramazan təqvimi ilə bağlı ixtilaflardan qaçmaq mümkün olmayıb. Məlum olub ki, bu il qonşu Türkiyədə Ramazan ayı mayın 16-da başlayıb. İranda isə mayın 17-si Ramazanın ilk günü elan edilib. Bu səbəbdən də azərbaycanlıların bir qismi QMİ-yə deyil, Türkiyənin dini qurumlarının elan etdiyi təqvimə əsasən oruc tutmağa başlayıb. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü, **deputat Fazil Mustafa** mayın 16-da oruc tutub. Deputat modern.az saytına deyib ki, insan hürdür, istədiyi seçimi edə, öz idarəsi çərçivəsində qərar qəbul edə bilər.

**Sitat:** "Kim istəyir bu gün oruc tutsun, kim istəyir sabah. Hesab edirəm ki, Azərbaycanda irançı zehniyyətə sahib olmayan insanların böyük əksəriyyəti bu gün oruc tutur. Biz daha çox türk istiqamətində düşünən insanlar olduğumuza, o cümlədən qidalanma ilə əlaqəli Türkiyə proqramlarını izlədiyimizə görə bu məsələdə onlarla paralel hərəkət edirik. Bildiyiniz kimi, Azərbaycanda dini maarifçilik istiqamətində heç bir ciddi iş aparılmır. Televiziyalarımız daha çox dini cəhalətin, nadanlığın, xurafatın yayılması, başı ziyarətgahlara sürtməyin, gedib orada qurban kəsməyin, imamzadələrin təbliği və s. istiqamətdə fəaliyyət göstərirlər. Bütün bunlar İslam dini ilə uzlaşmayan məsələlərdir. Bu, Azərbaycana aid bir İslamdır və gerçək dinlə ciddi əlaqəsi yoxdur".

Ancaq məsələ ondadır ki, QMİ Ramazan təqvimini Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının hesablamasına əsasən tərtib etdiyini bəyan edib. Lakin görünən odur ki, bu açıqlama heç də hamı tərəfindən inandırıcı qəbul olunmur. Məsələ ondadır ki, bu mövzu demək olar, hər il eyni şəkildə təkrarlanır. Məzhəb ayrılığı, siyasi baxışlar dini mövzuya da təsir edir və nəticədə bu cür kəskin fikirlərlə ifadə olunan vəziyyət yaranır. Əslində isə bu mövzunun ölkə və ya siyasi qərarlarla ciddi əlaqəsi yoxdur.

Məsələn, Türkiyədə əsas dini qurum hesab olunan Diyanət Başkanlığı Ramazan ayı və digər İslam dini ilə əlaqəli hicri günlərlə bağlı təqvimi Qəndilli Rəsədxanasının məlumatlarına əsasən hazırlayır. Türkiyədə Qəndilli rəsədxanası, Azərbaycanda isə Şamaxı Astrofizika Rəsədxanasının məlumatına əsasən.

Qeyd edək ki, yeni başlayan ayın müəyyən olunması şəriət qanunlarında müəyyən olunan ayı təyin etmə qaydalarla izah olunur. Bir sıra islam məzhəbləri, xüsusən də şiə-cəfəri məzhəbi Qəməri təqvimlə yeni ayın daxil olmasını müəyyən etmək üçün yeni doğan ayın (hilal) görünməsi şərtini irəli sürür. Yəni cəfəri məzhəbinə, eləcə də Səudiyyə Ərəbistanı kimi ölkələrdə Quranda bildirildiyi qaydada insan özü və ya şəriətdə müəyyən edildiyi kimi etibar etdiyi şəxslər və ya bütövlükdə yaşadığı şəhər ayı gördüyü təqdirdə yeni ayı başlanması sübuta yetirilmiş hesab olunur.

Ancaq eyni zamanda bir sıra müsəlman ölkələrində artıq müasir texnoloji yeniliklərdən istifadə etməklə ayın başlanmasını müəyyən edirlər. Bu zaman gözlə görmək şərti qüvvədən düşür. Bu mövzuda mübahisələr uzun illərdir davam edir və təəssüf ki, müsəlman dünyası ortaq Ramazan təqvimi və ya ən azı uyğun coğrafi bölgələr üçün təqvimlər hazırlamaqla bağlı razılaşma əldə edə bilmirlər. Burada xüsusi bir məqamı da qeyd etmək lazımdır ki, coğrafi qurşaqlara görə Ramazan ayının yer planetinin bir nöqtəsində başqa bir nöqtəsinə nisbətən bir gün fərqli olması mümkündür. Misal üçün, qərb yarımkürəsi ilə şərq yarımkürəsi arasında təqvim fərqi mümkün olsa da, Azərbaycan və Türkiyə kimi qonşu ölkələrdə təqvim fərqlərinin ortaya çıxması daha çox dini görüşlərdəki fərqlərlə izah olunur. Bunu fotolardan da görmək mümkündür.

Məsələ ondadır ki, həm Ramazan ayının başlaması, həm də aylıq ibadət vaxtları ilə bağlı dini təqvimlərin hazırlanmasındakı bu pərakəndəliyi hələlik nə Azərbaycanda, nə də ümumilikdə müsəlman ölkələrində aradan qaldırmaq mümkün olmayıb. Doğrudur, müsəlman ölkələrində bununla bağlı müəyyən çağırışlar və görüşlər keçirilib. Ancaq ortada olan yanaşma fərqləri bu cür texniki məsələləri aradan qaldırmağa imkan vermir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 107 (6996) 17 may 2018

# Qərb Rusiyadan qorxurmu? - iki rəy

## İqtisadçılar yeni avtomobil zavodunun perspektivi ilə bağlı müxtəlif fikirlər səsləndirdilər

**Qərbin 4 ildir sanksiyalar tətbiq etdiyi Rusiyadan çəkindiyi yönündə iddialar var. Son olaraq, alman professor Manfred Hildermayer Rusiya prezidenti Vladimir Putinin növbəti 6 illik prezidentlik müddətini dəyərləndirərkən bu barədə danışıb. Alman professor Qərbin Rusiya ilə açıq qarşıdurmadan yayındığı iddiasındadır.**





**Əhəd Məmmədli:** "Putinin güclü lider olduğunu..."
**Elşən Mustafayev:** "Sanksiyalar Rusiyaya çox böyük zərbələr vurub"

Əslində bu cür fikirlər tez-tez səslənir. Çünki şimal qonşumuz son 4 ildə Amerika qarşısında inanılmaz dirəniş göstərir. Hətta bəzi məqamlarda Qərbə meydan oxuyur, bir sıra ərazilərdə baş verən münaqişələrdə üstünlük belə qazanır.

**Politoloq Əhəd Məmmədli** də Qərbin Rusiyadan çəkindiyini düşünür: "Qərb Rusiyaya total şəkildə, məqsədyönlü hücumlar etmir. Çünki Qərb indi monolit bir güc birliyi deyil. Amerikanın maraqları ilə Avropa Birliyinin, Avropa Birliyi ilə Böyük Britaniyanın, Amerika ilə Böyük Britaniyanın maraqları toqquşur. Üstəlik, Amerikanın özündə elitalar arasında daxili qarşıdurmalar gedir, prezident, Konqresə qarşı və s. Bütün bu mənzərə də Rusiyaya sərf edir. Neftin qiymətinin qalxması Rusiya tipli neft rejimlərini yenidən gücləndirir. ABŞ hələ də Rusiyaya qarşı ən yüksək səviyyədə sanksiyalar tətbiq etməyə risk etmir. Əlavə də Putinin güclü lider olduğunu da qeyd etməliyik. Kəşfiyyatçı kimi Putin rus xalqının içini gözəl bilir və buna da uyğun fəaliyyət göstərir. Rusa tox, amma qismən balaca Rusiyadansa, ac, amma böyük imperialist Rusiya lazımdır. Putin də xalqının istədiyini məharətlə yerinə yetirir. Qərb təbii ki, Rusiyadan çəkinir. Çünki Rusiya dünyanın ikinci nüvə derjavasıdır. Əmin olun ki, rusların atom bombası olmasaydı, onları da çoxdan qardaşları serblərin vəziyyətinə salardılar. Onunla razı deyiləm ki, Rusiya dağılsa, dünya və reqiona fəlakətlər gətirə bilər. SSRİ haqqında da eyni sözlər deyilirdi. SSRİ dağıldı və heç bir fəlakət olmadı. Rusiya da dağılsa heç bir fəlakət olmayacaq. Əksinə, sabitlik yaranacaq. Görünür, hələ ki bu cür sabitlik heç kəsə lazım deyil. Yuxarıda qeyd etdiyim nüanslar Qərbi Rusiya qarşısında zəif edir. Kim sizə deyir ki, Qərb Rusiyanın dağılmasını istəyir? Bəlkə Qərb Rusiyaya lazımdır? Putini Qərb, Qərb də Putini yaxşı tanıyır. Və bunlar ikisi də bir-birilərinin hara qədər gedə biləcəklərini yaxşı bilirlər. Ona görə hələlik bir-birilərinə pas ötürürlər. Arada da, Fələstin, Ukrayna kimi ölkələri bir-birilərinə qurban verirlər. Fələstin ABŞ-ın, Ukrayna isə Rusiyanın qurbanına çevrilib. Və bu cür misallar çox göstərə bilərik".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev sanksiyaların Rusiyaya böyük zərbə vurduğunu qeyd etdi:** "Rusiyaya qarşı tətbiq edilən sanksiyalar bu gün üçün mümkün olan yeganə variantdır. Nəticələrin bütün tərəflər üçün ağır olacağını nəzərə alsaq, münasibətlərin qaynar fazaya keçməsində heç kim maraqlı deyil. Amma eyni zamanda Qərb maksimim dərəcədə, müharibəsiz bu qarşıdurmada qalib olmağa çalışır. Sanksiyaların Rusiyaya təsir etməməsini, yaxud az təsir etməsini deyənlər isə yanılırlar. 4 il bundan öncəki Rusiyanın iqtisadi vəziyyətini, valyuta ehtiyatlarını , ölkədə xarici sərmayənin həcmini araşdırsaq görərik ki, sanksiyalar Rusiyaya çox böyük zərbələr vurub. Belə ki, bu müddət ərzində ölkədən milyardlarla sərmayə geri çəkilib, valyuta ehtiyatları kritik həddə qədər azalıb. Hesab edirəm ki, son sanksiyalar kifayət qədər sərt idi. Təkcə son sanksiyalarda 1 günün içində 70 milyarddan artıq sərmayə ölkədən çıxıb, bir çox böyük banklar iflas həddinə çatıb, proses hələ də davam edir. Amma bunu etiraf etmək məğlubiyyəti etiraf etmə anlamına gəldiyi üçün hazırda bütün tərəflər informasiya müharibəsi aparır. Yəni Qərb sanksiyaların vurduğu ziyandan daha artığını təbliğ edirsə, Rusiya da bu sanksiyaların təsirsiz olduğu təbliğatını yayır. Sözsüz ki, soyuq müharibənin əsas qaydalarından biri də müdafiə mövqeyində olmamaq, özünü zəif göstərməməkdir. Bu xətdən çıxış edərək Rusiya mütəmadi olaraq Qərbin üstünə gedir, müxtəlif ittihamlar və təhdidlər səsləndirir. Əslində bu günə qədər olan qarşıdurmada iki tərəf var, ABŞ və Rusiya. Qərb sözü isə ümumi olaraq işlədilir və kollektiv şəkildə bir çox dövlətlərin bu istiqamətdə fəaliyyətdə olduğunu bildirir. Biz bilirik ki, bütün sanksiyalar ilk olaraq ABŞ tərəfindən tətbiq olunur, sonradan Avropa İttifaqı dövlətləri bu sanksiyalara qoşulur. Avropa ittifaqı dövlətləri də yekcins deyil. Bir sıra dövlətlər bu sanksiyalara könülsüz olaraq qoşulur və Rusiya ilə yaxşı münasibətlərin olmasında maraqlıdırlar. Onlar üçün başqa ölkələrdə demokratik vəziyyətin necə olması, Krımın anneksiyası və s. bu kimi hadisələr maraqlı deyil. Maraqlı olan Rusiya ilə ikitərəfli biznes əlaqələri, xeyirli kontraktlar, əldə olunan gəlirlərdir. Amma onların iqtisadi vəziyyəti, Avropa İttifaqındakı gücü istədikləri kimi olmağa imkan vermir. Avropa İttifaqında əsas güc sahibi Almaniya, sonra isə Fransadır. Ona görədir ki, ABŞ rəhbərləri ittifaqda qəbul olunacaq qərarlarla bağlı bu iki dövlətin rəhbərləri ilə görüşürlər. Bu iki dövlət isə Avropa İttifaqının iqtisadi gücü olması ilə bərabər, Avropa Parlamentində əhalinin sayına görə ən çox deputatla təmsil olunurlar və Avropa Birliyi Komissarlarının təyinatında da həlledici rol oynayırlar. Eyni zamanda ittifaqın ümumi xəzinəsinə də ən çox pul ödəyirlər, digər üzvlərə borclar verirlər. Bütün bunlarla bərabər Qərb müəyyən mənada Rusiyadan çəkinir. Xüsusilə Şərqi Avropanın uzun müddət SSRİ nəzarətində olması, imkan olarsa bu nəzarəti bərpa etmək ambisiyaları Qərbi həmişə çəkindirib. Çünki qarşısındakı dünyanın ən güclü nüvə dövlətlərindən biridir. Məhz ona görədir ki, bəzi hallarda istəməsələr də, özlərinin iqtisadi maraqlarına zidd olsa da sanksiyaların tətbiqində ABŞ-a dəstək verirlər. ABŞ-ın isə Rusiyanı çoxsaylı dövlətə parçalamaq fikri yoxdur və bunun indiki dönəmdə perspektivsiz olduğunu və cəhdlər olarsa, hamı üçün ağır faciələrlə nəticələnəcəyini yaxşı bilir. Hesab edirəm ki, onlar üçün ən optimal variant iqtisadi çökmələr və daxili təzyiqlər vasitəsilə Putin rejiminin dəyişdirilməsi, liberallardan ibarət bir hakimiyyətin olmasıdır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Çeçen və ərəblər Avropada niyə dinc durmurlar...

## Elxan Şahinoğlu: "Olanları bir xalqın üstünə yıxmaq olmaz"
## Nəzakət Məmmədova: "Terroru törədən ərəb və ya çeçenlər bəzi dövlətlər üçün sadəcə bir vasitədir"

**Məlum olduğu kimi, Fransada çeçenlər kütləvi həbs olunmağa başlayıb. Belə ki, bu günlərdə Fransa Əks-Kəşfiyyat İdarəsi ölkədəki çeçen icmasının 6 üzvünü həbs edib. Məlumata görə, saxlanılan şəxslər ötən il İspaniyada baş verən terror aktında şübhəli bilinirlər.**

Ümumiyyətlə, son illərdə ərəblər kimi çeçenlər də Avropaya axın etməyə başlayıb. Hətta bir müddət bundan öncə yüzlərlə çeçen qaçqının Polşa ərazisinə keçmək istədiyi haqda məlumatlar yayılmışdı. Çeçenistan prezidenti Ramzan Kadırov isə çeçen xalqının Avropaya miqrasiya etməsi üçün heç bir səbəb olmadığını demişdi.

Müşahidələr onu göstərir ki, Avropa ərəbləri sevmədiyi kimi, çeçenlərə də bu cür münasibət bəsləyir, onlardan çəkinir. Səbəb isə bəzi terror aktlarında və ya müxtəlif insidentlərdə ərəb və çeçenlərin iştirak etməsidir.

Bəs çeçen və ərəblər Avropada niyə "dinc dayanmır?" Bu bir kampaniya və yaxud onların millət olaraq xarakterlərindən irəli gələn bir məsələdir?

**Mövzu ilə bağlı politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a danışıb:** "Tanıdığım çeçenlər olub ki, onlar yaşadıqları ölkəyə, onun qanunlarına hörmətlə yanaşıblar. Əlbəttə ki, hər bir xalqda olduğu kimi, çeçenlər arasında da cinayətkar ünsürlər ola bilər. Zaman-zaman eşidirik ki,





Avropada hansısa qruplaşmalar cinayət törədir və onlar həbs olunur. Lakin olanların hamısını bütün çeçen xalqının üzərinə yazmaq olmaz. Məsələ burasındadır ki, bəzən bundan çıxış edən bir sıra dövlətlər harada çeçen görürsə, onu cinayətkar kimi qələmə verir, ondan çəkinməyə çalışır. Ərəblərə gəldikdə isə eyni sözləri ərəblərə də şamil etmək olar. Məlum olduğu kimi, Bakıya da çoxsaylı ərəb turistləri gəlir. Avropada da ərəblər çoxlu saydadır və onların bəziləri kasıb ölkələrdən gələn, müharibələrdən qaçanlardır. Əlbəttə ki, həmin ərəblərin içindən cinayətkarlar, terrorçular da çıxır. Məsələ burasındadır ki, yaşadığı ölkənin qanunlarına hörmət edən ərəblər haqqında danışan azdır. Lakin hansısa insident, qalmaqal olanda dərhal bu haqda danışılır, müzakirə edilir, hadisə bir xalqın adına yazılır, bu da düzgün deyil, yanlışdır. Avropada bununla bağlı fobiyalar var. Məhz elə bu fobiyalar ucbatından onlarla bağlı əks-səda olur".

**Politoloq Nəzakət Məmmədova da məsələ ilə bağlı öz şərhini bildirib:** "Təəssüf ki, çeçen və ərəb xalqının bəzi nümayəndələrinin adları tez-tez terror və insident olaylarında çəkilir. Məsələn, məlumdur ki, Rusiyada çeçenlər bir sıra terror aktlarında iştirak edib. Həmçinin çoxlu sayda çeçen Suriyada olan müəyyən terror qruplaşmalarının tərkibində fəallıq göstərib. Bundan başqa da Avropada çeçenlərin yüksək səviyyədə diasporu formalaşıb. Hansı ki, zamanında Rusiya ilə Çeçenistan arasında müharibələr baş verəndə çoxlu sayda çeçen qaçqını Avropa ölkələrində sığınacaq almışdı. Nəticədə Avropada çeçen diasporu güclənməyə başladı. Məsələn, Londonda çeçen mühacir hökuməti fəaliyyət göstərir. Təbii ki, orada daha çox varlı, imkanlı çeçenlərdir.

Xatırlayırsınızsa, bir zamanlar çeçenlər Türkiyə ərazisində Rusiya gəmilərini girov götürmüşdü. Yəni çeçenlər zaman-zaman bir çox ölkələrdə terror aktlarında iştirak edib. Hətta ABŞ-da törədilən bir terror aktında çeçenlər iştirak etmişdi. Yəni çeçenlərin bu günə qədər fəaliyyəti onu deməyə əsas verir ki, çeçenlərdən bir qədər çəkinmək lazımdır. Eyni zamanda ərəblərlə də bağlı eyni sözü demək olar. Statistika aparılsa müəyyənləşər ki, dünyada törədilən terror aktlarında ən çox bu xalqların adları çəkilir. Ola bilər ki, onlar bu hadisələri öz iradələri daxilində edib və ya hansısa dövlətlərin müəyyən təsiri altında olub. Məsələn, məlumdur ki, hazırda Fransa ilə ABŞ arasında müəyyən narazılıqlar var. Ola bilsin ki, bu məsələdə ərəb və ya çeçenlərdən istifadə edilsin. Məlum məsələdir ki, çeçenlərin və ya ərəblərin Fransa ilə nə iddiası ola bilər? Yalnız ötən əsrin 60-cı illərində ərəblərlə fransızlar arasında Əlcəzair problemi yaşanmışdı. Lakin sonra bu məsələ öz həllini tapdı. Yəni adətən bir ölkənin ərazisində terror olayı baş verəndə məlum olur ki, terror qrupunun arxasında əslində başqa dövlətlər dayanır. Terroru törədən ərəb və ya çeçenlər, sadəcə, onlar üçün bir vasitədir"

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# 19 manata görə öldürülən taksi sürücüsünün evində ürək sızladan mənzərə

## Qəddarlıqla qətlə yetirilən Aydın Şıxəliyev "yetimlər atası" kimi tanınırmış







**Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsi ərazisində "Mercedes" markalı avtomobilin sükanı arxasında çoxsaylı bıçaq xəsərətləri nəticəsində öldürülən Aydın Şıxəliyevin mayın 16-da 7 mərasimi keçirilib.**

Məclisdə iştirak edən baku.ws-in müxbiri xəbər verir ki, xüsusi qəddarlıqla qətlə yetirilən Aydın Şıxəliyev "yetimlər atası" kimi tanınırmış. Taksi xidməti ilə çörək, pulunu qazanan Aydın Şıxəliyev həmişə qohum-qonşunun köməyinə yetən biri olub.

Qonşuları bildirdilər ki, bu kişi "yetimlər atası" olub. Hamıya bacardığı qədər əl tutub. Kimin evində rəhmətə gedən olanda o, birinci köməyə gedirmiş. Həmin yerə şorqoğalı, çörəyi pulsuz paylayarmış. Heç kimdən pul götürməyib. Bu qədər yaxşı insan olub.

Aydın Şıxəliyevin həyat yoldaşı Firəngiz Şıxəliyeva hadisədən sonra böyük sarsıntı keçirib. O, hələ də həyat yoldaşının öldüyünə inana bilmir.



Qeyd edək ki, bu il mayın 8-də Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsi ərazisində "Mercedes" markalı avtomobilin sükanı arxasında çoxsaylı bıçaq xəsərətləri nəticəsində naməlum bir şəxsin öldürülməsi barədə şəhər polis idarəsinə məlumat daxil olub. Dərhal polis idarəsi və şəhər prokurorluğu rəhbərliyinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, təxirəsalınmaz istintaq hərəkətləri aparılaraq müvafiq əl-barmaq izləri götürülüb, meyiti tapılan şəxsin "Mercedes" markalı avtomobilin sürücüsü, paytaxt sakini Aydın Şıxəliyev olması müəyyənləşdirilib.

DİN-in Baş Cinayət Axtarış, Kriminalistik Təhqiqatlar idarələri və Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ağır cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Pərviz Məmmədov, Sumqayıt şəhərində yaşayan Rahin Hüseynov və Şəmkir rayon sakini Şamil Bayramov tutulub.

Məlum olub ki, saxlanılan şəxslər Bakı-Sumqayıt istiqamətində hərəkət edən taksilərdən birinə müştəri kimi əyləşərək avtomobili Tağıyev qəsəbəsinə sürdürməyi və orada sürücüyə zor tətbiq edərək onun pulunu, mobil telefonunu almaq barədə əvvəlcədən razılığa gəliblər. Bu niyyətlə hər 3 şəxs mayın 8-də metronun "20 Yanvar" stansiyasının yaxınlığında Aydın Şıxəliyevin idarə etdiyi "Mercedes" markalı avtomobilə əyləşiblər.

Qabaqcadan nəzərdə tutulmuş yerə çatdıqda Şamil Bayramov və Rahin Hüseynov üzərlərində olan bıçaqlarla Aydın Şıxəliyevə çoxsaylı zərbələr endirərək onu qətlə yetiriblər. Sonra onlar sürücünün cibindən 19 manat və 2 ədəd mobil telefonunu götürərək hadisə yerini tərk ediblər.

# Milyonlar bankdan hansı yollarla çıxarılıb?

## "Atrabank" sədrinin məhkəməsində ilginc faktlar üzə çıxır

**"AtraBank"ın İdarə Heyətinin sabiq sədri Elmixan Nəbiyevin məhkəməsi davam etdirilib. Musavat.com xəbər verir ki, E.Nəbiyevin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində baş tutub.**



Hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən məhkəmə iclasında şahid qismində "Qaradağ Maşınqayırma Zavodu" ASC-nin rəhbəri Asif Bədəlov ifadə verib.

O bildirib ki, 2015-ci ildə "AtraBank"dan adına 390 min dollardan çox kredit götürülüb.

"Tanışım Əkbər Məmmədovun bank rəhbərliyi ilə münasibətləri yaxşı idi. Onun xahişi ilə bankdan adıma 390 min dollardan çox kredit götürdüm. Sonra krediti zavodun adına sənədləşdirdik"- deyən A.Bədəlov söyləyib ki, pulu bankın kassasından götürüb və Əkbər Məmmədova verib.

**Şahidin dediyinə görə, ödənişləri Əkbər Məmmmədov özü edirmiş:** "Ödənişlərin tam olaraq ödənildiyi barədə dəqiq məlumatım yoxdur".

Daha sonra tikinti materiallarının alqı-satqısı firmasının sahibi Ağamirzə Arazov şahid qismində dindirilib.

**A.Arazov deyib ki, 2016-cı ildə iş yoldaşı Rəşad Gərayzadənin xahişi ilə "AtraBank"dan adına 1 milyon dollar kredit götürüb:** "Həmin pulu götürüb, elə kassaya da verdim. Yalnız sənədlərə qol çəkmişəm, 1 milyon dolları isə görməmişəm. Mən həmin zaman Elmixan müəllimlə müqavilə bağladım ki, ödəniş Rəşadın bankda adına olan depozit hesabından çıxılsın. Bildirildi ki, götürülmüş kredit də bankın kapital nizamnaməsinə sərf olunacaq".

Məhkəmədə şahid qismində İnşallah Camalov da ifadə verib.

O, təqsirləndirilən şəxsi tanımadığını deyib. İ.Camalov da digər şahidlərin adını çəkdiyi Əkbər Məmmədovun dostu olduğunu vurğulayıb: "2016-cı ildə iki dəfəyə adıma 600 min dollara yaxın kredit götürülüb. Pulu da Əkbər müəllimə verdim. Sonra maraqlandım. Dedi ki, hissə-hissə ödəyirəm".

**İş adamı, "Polad" MTK-nın rəhbəri Faiq Bədəlov isə şahid qismində dindirilən zaman bildirib ki, bankdan öz adına Əkbər Məmmədov üçün 255 min dollar kredit götürüb:** "Şirkətin adına bankda 1 milyon dollarlıq xətt açılmışdı. Həmin xətlə də bankdan 255 min dollar kredit verildi. Krediti də Əkbər müəllimin özü ödəyirdi".

Hakim isə xatırladıb ki, ötən məhkəmə iclasında Əkbər Məmmədov özü ifadə verib. O, dindirilən zaman hələ kreditlərlə bağlı ödəniş etmədiyini deyib.

Hakim ifadə verən şəxslərə xəbərdarlıq edib. Söyləyib ki, adlarına götürdükləri kreditləri özləri ödəməlidir, məhkəmə bununla bağlı qərar çıxaracaq.

Məhkəmənin növbəti iclası mayın 23-nə təyin edilib.

**E.Nəbiyev özünü təqsirli bilmədiyini deyib. O, sərbəst ifadə verən zaman bildirib ki, "AtraBank" Açıq Səhmdar Cəmiyyəti 23 il fəaliyyət göstərib, heç bir qanun pozuntu etməyib:** "Bank bağlanandan sonra barəmdə ittiham irəli sürüldü ki, guya yeyinti etmişəm. Bankın 99.3 faiz səhimdarı mənəm. Mən burada necə pul mənimsəyə bilərəm axı? Guya mən 802 min manat pul mənimsəmişəm. Bu gün bankdan alacağım 92 milyondur, verəcəyim isə 16 milyondur. Bəs bu necə olur? Kimin pulunu yemişəmsə gəlsin desin. Bankda 23 il ərzində qazandıqlarımdan kasıba əl tutmuşam, heç mənim şəxsi maşınım belə yoxdur".

Baş Prokurorluğun mətbuat xidmətinin məlumatına görə, "AtraBank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri olmuş Nəbiyev Elmixan Nəbi oğlunun qanunsuz əməlləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq aparılıb.

İstintaq zamanı E. Nəbiyevin "AtraBank" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləyərkən bank sahəsində qüvvədə olan qanunvericiliyin şərtlərini pozmaqla, bankın lisenziyasının ləğv olunmasının qarşısını almaq üçün özünün iştirakı ilə yaradılmış və yaxın münasibətlərdə olduğu ayrı-ayrı şəxslərin adlarına rəsmiləşdirilmiş formal, heç bir fəaliyyəti olmayan özəl müəssisələri təşkil etmək yolu ilə faktiki mövcud olmayan maliyyə vəsaitləri üzrə onların adlarına ümumilikdə 8 milyon 405 min manat məbləğində qanunsuz kreditlər rəsmiləşdirərək Mərkəzi Bankın tələb etdiyi formal məcmu nizamnamə kapitalına malik olması görüntüsü yaratmasına, eyni zamanda ayrı-ayrı fiziki şəxslərin adlarına ümumilikdə 809 min manat kredit rəsmiləşdirib mənimsəməklə talamasına əsaslı şübhələr müəyyən edilib.

E.Nəbiyevin qeyd edilən qanunsuz hərəkətlərlə külli miqdarda özgə əmlakını mənimsəməsinə və ləğvetmədə olan "Atrabank" ASC-nin hüquqlarına və qanuni mənafelərinə, o cümlədən dövlətin bank sisteminin dayanlıqlığının və maliyyə sabitliyinin daha da gücləndirilməsi sahəsində qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə şübhələr üçün əsaslar olduğundan Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddəsi ilə ittiham elan olunmaqla, cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Həmçinin məlumatda qeyd edilir ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "AtraBank" ASC ilə yanaşı "Bank Standard" QSC, "ZaminBank" ASC, "Bank of Azerbaijan" ASC, "GəncəBank" ASC-nin, həmçinin ləğvetmə prosesində olan digər bankların vəzifəli şəxsləri barəsində, habelə qeyd edilən banklardan külli miqdarda kredit götürərək müxtəlif üsullarla, o cümlədən mənimsəmə və ya digər formada talamaqla həmin kreditləri ödəməyən fiziki və hüquqi şəxslər barəsində istintaqı aparılan cinayət işləri üzrə qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində Maliyyə Bazarlarına Nəzarət Palatası və Əmanətlərin Sığortalanması Fondu ilə birgə zəruri tədbirlər davam etdirilir.

❑ **İlkin MURADOV**
**Musavat.com**

bakcell

## «Bakcell» universitet məzunları və tələbələr üçün yay təcrübə proqramı elan edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» böyük məmnuniyyətlə III və IV kurs bakalavr tələbələri, magistrlər və yeni məzunları şirkətin "2018 Yay Təcrübə Proqramı"nda iştirak etməyə dəvət edir.**

**Tələbə və məzunlar üçün nəzərdə tutulmuş 2 aylıq proqramın əsas məqsədi karyerasında ilk addımlarını atmağa başlayan gəncləri Azərbaycanın ən nüfuzlu və innovativ şirkətlərindən birində iş mühiti ilə tanış etmək, praktiki biliklərlə təmin etmək və onların işə hazırlıq bacarıqlarını inkişaf etdirməkdir.**

**Seçimdən uğurla keçən namizədlər "«Bakcell»"in satış və marketinq şöbələrində 2 ay müddətində təcrübə keçmək imkanına malik olacaqlar. Təcrübə müddətində gənclər şirkətin aparıcı mütəxəssisləri arasından seçilmiş təcrübə rəhbərləri vasitəsilə müvafiq bilik və bacarıqlara yiyələnərək şirkətin ümumi strukturunu və iş prinsiplərini öyrənəcək, eyni zamanda karyera planlaşdırılması, biznes etikası, vaxtın səmərəli bölgüsü, effektiv kommunikasiya, özünü kəşfetmə, əməyin təhlükəsizliyi və ətraf mühit, sağlamlıq və digər mövzularda praktiki biliklər əldə edəcəklər. Təcrübə proqramı başa çatdıqda bütün iştirakçılar qiymətləniriləcək və layihədə iştirak etdiklərini təsdiq edən sənədlə təltif olunacaqlar.**

**«Bakcell» şirkətinin "2018 Yay Təcrübə Proqramı" barədə daha ətraflı məlumatı www.«Bakcell».com səhifəsində əldə etmək olar. Proqramda iştirak etmək üçün müraciətlər (CV) 31 may 2018-ci il tarixinə qədər internship@«Bakcell».com ailto:internship@«Bakcell».com ünvanı vasitəsilə qəbul olunacaq.**

**Qeyd edək ki, 2014-cü ildən etibarən «Bakcell» şirkətinin təcrübə proqramlarında 100 nəfərdən çox gənc iştirak edib. Proqramda iştirak zamanı yüksək nəticələr nümayiş etdirən tələbə və məzunlar «Bakcell» şirkəti və digər nüfuzlu şirkətlər tərəfindən işlə təmin edilib. Digər iştirakçılar isə yerli və xarici universitetlərdə təhsillərini davam etdirirlər.**

**Azərbaycanın ən prestijli işəgötürənlərdən biri olan «Bakcell» şirkəti, bütün işçilər və namizədlər üçün eyni şərait yaradır. Şirkət işə qəbul və seçim prosesində şəffaflıq prinsiplərinə riayət edir.**

**Bayıl yamacında sürüşmə zonasında yaşayan sakinlərin taleyi həll olmamış, qəsəbə ərazisində növbəti sürüşmə hadisəsi baş verib. Nəticədə bu dəfə Bayıl qəsəbəsinin Buxta küçəsinin sakinləri evsiz qalıblar. Belə ki, mayın 15-də saat 20-00 radələrində Səbayel rayonu, Bayıl yaşayış sahəsi, Buxta küçəsində yeraltı proseslərin təsiri ilə torpaq sürüşməsi baş verib və bu zaman 2 fərdi yaşayış evi tam, 2-si isə qismən dağıntılara məruz qalıb.**

# Bayıl yenə sürüşdü, sakinlər təşviş içində

## Qəzalı vəziyyətdə olan evlərlə bağlı qərar verilməlidir; rəsmilər deyir ki...

"Yeni Müsavat"ın əməkdaşı olaraq ərazidə olub, sakinlərin vəziyyəti ilə maraqlandıq. Öyrəndik ki, uçan evlər hələ sovet dönəmində yamacda tikilmiş fərdi yaşayış evləridir. Bu evlərin istismar müddətinin başa çatdığı söylənildi. Müşahidə etdik ki, ərazidəki evlər bir-birinə çox yaxın məsafədə tikilib. Bu evlərin hamısı yamacda yerləşir və uçma təhlükəsi yüksəkdir.

Uçan evlər Nizami Rəhimov və Nağı Həsənovun evləridir. Nizami Rəhimovun evinin iki otağı tamamilə uçub. Nağı Həsənovun isə iki mərtəbəli evi uçaraq, yararsız hala düşüb. Biz ərazidə olduğumuz zaman kommunal xidmətlərin əməkdaşları ərazidəki xətlərə baxış keçirib, lazımi tədbirləri görürdülər. Öyrəndik ki, ərazidə çökmə hadisəsindən sonra bütün kommunal xidmətlərin verilişi dayandırılıb. Bu hal isə digər sakinlərin narazılığına səbəb olub. Sakinlər bildirdilər ki, əgər sürüşmə baş verirsə, həmin evlərin kommunal xətlərini kəssinlər.

**Sakin Surə Hüseynova aşağıdakıları bildirdi:** "Dünən axşam saatlarından etibarən bütün kommunal xətləri kəsdilər. Mənim övladım sabah imtahan verməlidir. Bu cür stressin altında necə hazırlaşsın? Səhər icra nümayəndələri əraziyə gəlib, bizə dedilər ki, evlərinizi tərk edin. Burada qalmaq təhlükəlidir. Soruşduq ki, tərk edib hara gedək? Bizə dedilər ki, yığışın gedin məktəbdə qalın. Bu qədər camaat yayın günündə məktəb binasında necə qalsın? Xahiş edirik ki, bizim vəziyyətimizlə bağlı düzgün qərar versinlər".

**Sakinlər hesab edirlər ki, sürüşmənin səbəbi aşağı məhəllədə yaşayanların köçürülməsidir:** "Buranın tamamilə köçürülməsi nəzərdə tutulurdu. Abid Şərifovun vaxtında aşağı məhəllə köçürüldü, biz qaldıq burada. İndi də aşağıdakı evləri söküblər, ağırlıq olub yuxarıdakı evlər də uçub. Bizi buraxıblar Allahın ümidinə. Abid Şərifovun yerinə Hacıbala Abutalıbov təyin olunub. Hələ Hacıbala Abutalıbovdan heç bir xəbər yoxdur".

**Hacıbala Abutalıbovdan xəbər çıxmasa da Səbayel rayon icra başçısı Eldar Əzizov əraziyə gəlib, sakinlərlə görüşüb. O bildirib ki, ərazidə qanunsuz tikili yoxdur:** "Burada özbaşına tikili yoxdur, evlərin sənədləri var. İlkin ehtimala görə, evlərin resursu bitib. Bir bina bir ildir qəzalı vəziyyətə düşdüyü üçün Nazirlər Kabinetinin qərarı ilə sakinləri köçürülüb, onlar kompensasiya alıb".

**İcra başçısı qeyd edib ki, dağılan, təhlükəli ərazidəki evlərlə bağlı Nazirlər Kabineti tərəfindən qiymətləndirmə aparılaraq müvafiq qərar qəbul ediləcək:** "Bir il bundan öncə biz yazdıq və Nazirlər Kabinetinin qərarı ilə vətəndaşlar normal qaydada köçürüldü. Onlar kompensasiya da aldılar. İndi yeni bir problem gündəliyə çıxıb və buna da baxılır. Buradakı ailələrin sayı çoxdur. Ancaq burada bizim hesablamalarımıza görə, təxminən 10-15 ailə yaşayır. Bunu mən yox, mütəxəssislər müəyyən etməlidirlər. Binaların hamısı sovet dövründən tikilib və rəsmi balansdadır. Biz bu məsələni müzakirə etməliyik. İlkin fikrimizə görə, evlərin istismar müddəti başa çatdığı üçün uçub".

**Ərazidə xeyli sayda ev yararsız vəziyyətdədir. Onlardan bir neçəsində olub, vəziyyətləri ilə maraqlandıq. İsgəndərovlar ailəsində olduğumuz zaman müşahidə etdik ki, onların da evi hər an uça bilər. Evin binalarında olan nəmişlik səbəbindən bütün divar kağızları qopub, döşəmə yararsız vəziyyətdədir:** "Evi təmir də edə bilmirik. Təmir işini görürük, bir ay sonra divarlar nəmişlik çəkdiyi üçün kağızlar, boyalar qopur tökülür. Nəmişlik əlindən ailəmizin üzvlərində xəstəliklər yaranıb. Burada yaşamaq çox çətindir. Başqa da gedəcək yerimiz yoxdur. Ərazidə kanalizasiya xətləri də sıradan çıxıb. Ona görə torpağın altında sızmalar baş verir. Bütün bu sızmalar, yağış sularının hamısı gəlir, aşağıdakı evlərə dolur. İmkanı olan evinin ikinci mərtəbəsini tikib, orada yaşayır. İmkanı olmayanlar da nəmişlik içərisində qalıb. Bu evlərin əksəriyyətində iri çatlar var və onlar hər an uça bilər. Ona görə də xahiş edirik ki, bizim də vəziyyətimizlə maraqlansınlar".

Biz də müşahidə etdik ki, əksər evlərin divarlarında çatlar var. Uçan evlərin yaxınlığında müşahidə etdik ki, ərazidə natəmizlik də hökm sürür. Sakinlər hər gün evlərinə çox təhlükəli, yarıuçmuş vəziyyətdə olan pilləkənlərdən düşərək gedirlər. Bu pilləkənlərdən hər gün uşaqlar, yaşlılar, qocalar istifadə etmək məcburiyyətində qalırlar. Sakinlər bildirdilər ki, illərdir burada heç bir təmir işləri aparılmır: "Yollar yararsız, pilləkənlər isə yarıuçmuş vəziyyətdədir. Hər günümüz təhlükə içindədir".

**Mövcud vəziyyətlə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən də fikir aldıq. Öncə onu qeyd edək ki, nazirliyin əməkdaşları ərazidə işlər aparırlar. Nazirliyin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi Əziz Qaralov "Yeni Müsavat"a bildirdi ki, ərazidə vəziyyət təhlükəlidir:** "Buxta küçəsi 9-da hələ sovet dövründə yamac terrasvari kəsilib və yamacda evlər tikilib. Evlərdən təxminən 200 metr qərbdə - Badamdar istiqamətində müəyyən ekzogen proseslər müşahidə edilirdi. Yamacın terrasvari kəsilməsi, yamacda evlərin inşa olunması, əraziyə suvarma və çirkab sularının axıdılması ekzogen prosesin baş verməsinə səbəb olub. Nəticədə bu cür hadisə baş verib".















❑ **Əli RAİS,
"Yeni Müsavat",
Fotolar müəllifindir**

# Azərbaycan iqtisadiyyatı 1,2% artıb



**Bu ilin yanvar-aprel aylarında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,2% artaraq 22969,0 mln. manata çatıb.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, bu dövrdə tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib. Nəqliyyat və anbar təsərrüfatı sahələrində əlavə dəyər istehsalı 9,5%, informasiya və rabitə sahələrində 7,8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 7,3%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 3,5%, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 2,5%, sənayedə 1,1%, digər xidmət sahələrində 0,8% artıb, tikintidə isə 10,4% azalıb.

İqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 2,1% artıb, neft sektorunda isə 0,1% azalıb.

ÜDM istehsalının 48,4%-i sənayedə, 9,8%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,7%-I nəqliyyat və anbar təsərrüfatı sahələrində, 6,9%-i tikintidə, 3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6%-i informasiya və rabitə sahələrində, 14,0%-i digər sahələrdə istehsal edilib, məhsula və idxala xalis vergilər isə ÜDM-in 7%-ni təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 2346,0 manata bərabər olub.

YENİ MÜSAVAT

Son səhifə

N 107 (6996) 17 may 2018




## Hindistanlı qız həyatının hər günün şəkil çəkdirib

Böyük Britaniyadakı Kent qraflığında yaşayan hindistanlı Suman Bansal həyatının hər gününü fotoaparatın yaddaşına həkk edib. Bu ənənənin başlanğıcını qızın atası Muniş edib. O, ailəsi ilə birgə Böyük Britaniyaya köçəndən sonra belə qərara gəlib. Onun sözlərinə görə, bu çəkilişləri Hindistanda qalan valideynləri üçün edibmiş, onlar nəvələrinin hər gününü görsünlər deyə. 16 mayda 21 yaşı tamam olan qızı isə atasının bu ənənəsini davam etdirir və hər gün şelfi çəkdirir. O, bununla da ailəsinin ənənəsini davam etdirir.

Muniş ilk kadrı 1996-cı ildə, qızı dünyaya gələn gün çəkib. Kişi eyni zamanda qızının dünyaya gəlişinə qədərki UZİ görüntülərini də saxlayıb.İndiyə qədər ailə arxivində 7600-dən artıq foto yığılıb - hər günə aid bir foto.

2015-ci ilin may ayında məlum oldu ki, amerikalı rəssam Cey Key Keller son 16 il ərzində hər gün öz şəklini çəkib. O, bütün fotolardan ibarət bir videorolik hazırlayıb və bu, 3.5 dəqiqəni əhatə edib. Həmin videoroliki sosial şəbəkədə yayımlayan rəssam böyük marağa səbəb olub.

# Atasız uşaqlar aqressiv olurmuş



Kanadanın Mc Gil Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, atasız böyüyən uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan dava aqressiv olurlar. Mütəxəssislər atası olmayan uşaqlarla, ata-anaları ilə birlikdə böyüyən uşaqların beyinlərini müqayisə ediblər. Araşdırmalar bitdikdən sonra məlum olub ki, atasız uşaqların beyinlərində sosial əlaqələri tənzimləyən hissədə pozuqluqlar əmələ gəlir. Yəni valideynlərindən uzaqda qalan uşaqların davranışlarında anormallıq daha tez nəzərə çarpır. Belə uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan daha aqressiv olurlar. Mütəxəssislər atasız böyüyən qız uşaqlarının sinir sisteminin daha həssas olduğunu da bildiriblər. Belə uşaqlar böyüdükləri zaman çox aqressiv olurlar və ətrafdakılara zərər verməyə çalışırlar. Xüsusilə qız uşaqları spirtli içkilərə və narkotik maddələrə daha meylli olurlar.

Məlumat üçün bildirək ki, mütəxəssislər anasız böyüyən uşaqların heç vaxt özlərinə güvənmədiklərini və kökəlməyə meylli olduqlarını deyirlər.

# Çox yuxu diabet və depressiya gətirir



Hazırda müasir, işgüzar insanlar arasında yuxusuzluq xəstəliyi geniş yayılıb. Yuxu ilə az qala mübarizə aparan insanların əksinə olaraq çox yatanların dərdləri daha çoxdur. Belə ki, çox yatmağı sevənlər tez-tez diabetə və depressiyaya tutulurlar, həmçinin ürək-damar sistemlərində vaxtaşırı problemlər müşahidə olunur. Az yatmaq da ölümü tezləşdirən xəstəliklərə gətirib çıxarır.

Uorika Universitetinin professoru Franko Kappuççionun nəticəsinə görə, optimal yatmaq müddəti 7-8 saat olmalıdır. Həmçinin Massaçusets Universitetinin professoru Dr. Ceykobsun araşdırmasında da ən uyğun yatmaq müddəti 7 saat kimi göstərilir. Uorvik Universitetinin alimləri 50-64 yaş arası 9000 adam üzərində araşdırma aparıblar. Gün ərzində 8 saatdan az yatan adamlarda yaddaş və diqqət problemləri üzə çıxıb. Gün ərzində 8 saatdan çox yatan adamlarda da analoji problemlər ortaya çıxıb.

F.Kappussio eyni zamanda deyib ki, yalnız doğru miqdarda yuxu yaşlı adamlarda əqli geriləmənin qarşısını ala bilər: "Fiziki və əqli sağlamlıq üçün yuxu olduqca vacibdir". Optimal yuxu ahıl yaşlarındakı insanların beyinlərinin funksiyasını normada saxlayır.




**QOÇ** - Bu təqvimdə ümumi gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər - aldanmayın.

**BUĞA** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**ƏKİZLƏR** - Səhər saatlarında həmkarlarınızla, eləcə də yaxın münasibətdə olduğunuz bəzi kəslərlə mübahisələriniz mümkündür. Dünəndən bəri bürcünüzdə olan Ay sizdən mülayimlik tələb edir.

**XƏRÇƏNG** - Olduqca səmərəli bir gün yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Mümkün qədər ağır fiziki işlərə ara verin.

**ŞİR** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam saatlarında rəqiblərinizdən qorunmağa çalışın.

**QIZ** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki bu təqvimdə sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşə bilərsiniz. Bəxtinizdə pul var.

**TƏRƏZİ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvim bürcünüz üçün ən perspektivli zamana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**OXATAN** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**OĞLAQ** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**SUTÖKƏN** - Böyük dəyişiklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz bütün məsələləri isə təxirə salmalısınız.

**BALIQLAR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Arvadını çamadanda qaçırmaq istədi, yaxalandı



Fransa vətəndaşı öz həyat yoldaşını Polşaya çamadanın içində qaçırmaq istəyəndə yaxalanıb. Lenta.ru saytının xəbərinə görə, Polşa sərhədçiləri ər-arvadı qatardan düşürüblər. Adı açıqlanmayan kişi bildirib ki, Rusiya vətəndaşı olan arvadını çamadanda ölkədən qaçırmaq istəməsinin özəl səbəbi olub. Belə ki, buna səbəb qadına Şengen vizasının verilməməsi olub. Bildirilib ki, sərhədçiləri kişinin hədsiz dərəcədə böyük çamadanı şübhələndirib. Onlar son vaxtlar bir çox vətəndaşların qeyri-qanuni yollarla ölkəni tərk etməyə cəhd etdiyini, amma ilk dəfədir ki, bu üsuldan istifadə etdiklərini deyiblər. Məlum olub ki, sərhədi keçəndə çamadandan gələn qəfil səs sərhədçiləri hərəkətə gətirib. Çamadandan çıxarılan qadın özünü normal hiss etdiyini deyib, amma qəfil bir zərbə onun səsini çıxarıb yaxalanmasına səbəb olub. Həyat yoldaşını bu yolla ölkədən çıxarmaq istəyən kişinin 3 il müddətinə azadlıqdan məhrum ediləcəyi gözlənilir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100